

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 10 (24.392)

2 mart 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti


## Prezident həftəsi

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, daha sonra Xankəndi şəhərində olublar.

***

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiəni qəbul edib.

***

Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonu, İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratini qəbul edib.

***

Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

***

Martın 1-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib.

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması və Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması və Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların (Naxçıvan Muxtar Respublikasının Sahibkarlığın İnkişafı Fondu istisna olmaqla), Nazirliyin təsisçisi olduğu hüquqi şəxslərin (gəlirləri saxlanma xərclərindən az olan qurumlar (hüquqi şəxslər) istisna olmaqla) fəaliyyəti ilə əlaqədar (o cümlədən malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən) əldə edilən vəsaitin (dövlət rüsumu istisna olmaqla) səxərclərinin qalan hissəsinin 50 faizi, Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlər üzrə daxilolmalarının (faiz, cərimə və sair) 10 faizi (Fondun saxlanması xərcləri güzəştli kreditlər üzrə daxilolmaların 90 faizindən daha çox hissəsini təşkil etdikdə isə Fondun saxlanma xərclərinə ayrılan hissəsi istisna olmaqla qalan vəsait) Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada istifadə olunur;

1.2. bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulmuş vəsait aşağıdakı qaydada bölüşdürülür:

1.2.1. 93 faiz Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasını yaxşılaşdırmaq, Aparatının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə, habelə dövlət və ictimai məqsədli məsələlərlə əlaqədar həmin Nazirliyin hesabına köçürülür;

1.2.2. 7 faiz Naxçıvan Muxtar Respublikasının büdcəsinə köçürülür.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın icrası ilə bağlı müvafiq tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 fevral 2024-cü il*




# Xalqın sevgisi əvəzsizdir

## *Bu sevgini qazanmağı bacarmaq isə əsl liderlikdir*

Zəfər seçkisinin baş tutduğu həmin gün səhərin erkən saatlarından seçki məntəqələrində insanların səsvermə hüququndan istifadə etmələrini izləyəndə yaşı 80-i ötmüş, gözünün nuru azalmış nənənin yanındakı insanlara "Sizi Allaha and verirəm, Əliyevin oğluna səs verəcəm, düzünü deyin, hansıdır onun adı?" Vətən savaşında tək oğlunu qurban verən şəhid anasının "Oğlum onu seçdi, arxasınca getdi, qalib oldu. Mən də oğlumun uğrunda canından keçdiyi Vətənin işıqlı gələcəyinə səs verirəm", – deməsi, sağ əlini Vətən müharibəsində bir ovuc torpağa qurban verən qazinin sol əli ilə "Daim əmrindəyik, yanındayıq, Müzəffər Komandan" yazmasını görəndə keçmişin çətin günlərini xatırlayıram.

90-cı illərin çətin günlərində dahi rəhbər Naxçıvanda ölüm-olum mübarizəsi aparan insanlarla birlikdə düşmənə sinə gərəndə Qarabağda, ümumilikdə, Azərbaycanın digər bölgələrində siyasi hərc-mərclik baş verir, qardaş qırğını ilə üzləşirdik. Həmin illər idi ki, Xocalı soyqırımı, ardınca cənnət Şuşa və Laçın düşmənə peşkəş verilirdi. Bacarıqsız rəhbərlər düşmən hücumunun qarşısını almaq əvəzinə qeyri-qanuni silahlı birləşmələrlə üz-üzə gəlir, qardaş qırğınına yol açırdı. Bütün bunlar isə Birinci Qarabağ müharibəsində məğlubiyyətə gətirib çıxardı. Çünki tarixboyu heç bir antimilli hakimiyyət müharibədə qələbə qazana bilməyib və Azərbaycanda da belə oldu.

Həmin dövrdə Naxçıvanda baş verənləri yaxından izləyənlər, xalqın düşünən beyinləri bu çətin və xaos vəziyyətdən çıxış yolunu, nicatı Ulu Öndərin hakimiyyətə qayıdışında görürdü. Elə məhz buna görə də insanlar Onun hakimiyyətə gəlməsini tələb edirdilər. Qəzet və televiziya vasitəsilə Heydər Əliyevə müraciətlər edir, Naxçıvana gəlir, ondan imdad diləyirdilər. Hətta Qarabağda döyüşlərdə əsir düşənlərin valideynləri Naxçıvana üz tutur, dahi rəhbərdən onlara kömək etməsini istəyirdilər. Xalqın səsinə, çağırışlarına, Vətənin düşdüyü vəziyyətə biganə qala bilməyən dahi rəhbər həyatını təhlükəyə ataraq Bakıya qayıtdı və xalqın təkidli tələbi, səs çoxluğu ilə ölkə Prezidenti seçildi. Həmin gündən döyüşlər səngiməyə başladı. Hakimiyyətə vəzifə üçün yox, xalqa xidmət etmək üçün gəldiyini dəfələrlə dilə gətirən dahi rəhbər bunu sübuta yetirdi.

Xalq dahi rəhbərinə ilk dəfə 1993-cü ildə etimad göstərəndə Azərbaycan yox olmaq təhlükəsi qarşısında olsa da, xalqın Ulu Öndərin inamı Vətənimizi çətin vəziyyətdən xilas etdi. Azərbaycanı ayağa qaldıran dahi rəhbər bu qədim diyarı dünyaya tanıdıb, haqq səsini hər kəsə duyurdu. Canından çox sevdiyi Azərbaycanı gələcəyin Müzəffər Sərkərdəsi olacağına əmin olduğu siyasi varisinə, onu isə xalqına əmanət etdi: ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək"***, – deyib canından çox sevdiyi Vətən torpağında əbədiyyətə yolландı. Dahi rəhbərin xalqına əmanəti olan siyasi varisini xalq öz övladı kimi bağrına basıb daim onun arxasında dayandı.

Gün gəldi, vaxt-vədə yetişdi, vaxtilə xalqı bir çağırışı ilə meydanlara toplayıb, haqq səsini dünyaya çatdırıb, qardaş qırğınının, işğalın qarşısını alan dahinin oğlu bir çağırışla xalqı ayağa qaldırıb *"Qarabağ Azərbaycandır!"* şüarı ilə irəli atıldı. Dünyaya öz siyasi iradəsi, güclü ordusu, hər zaman bir olan xalqı ilə meydan oxudu. Bu xalq son 200 ildə ilk dəfə bütöv Azərbaycan deyə bildi. Bu xalq öz əsgəri, müəllimi, əkinçisi, həkimi ilə tarix yazdı. Dünya cəmi 44 gündə xalqın Vətən, rəhbər sevgisinə şahid oldu. İllərdir, həsrətlə yollara baxan gözlərdəki həsrət bitdi həmin gün.

Və bu gün hər səhər yuxudan ayılanda xəbər saytlarından gördüyümüz ilk xəbər Laçına, Zəngilana, Füzuliyə növbəti köç yola salındı olur. Bu köç illər əvvəlki köçlərdən deyil, əbədi qayıdışdır. Hər dəfə Vətənin oğluna etimad göstərmək üçün seçki sandığının başına gedib ümidlə səs verdikdə arzuladığımız köç.

Ulu Öndərin yaxınlarından eşitmişdim ki, O, 7 rəqəmini çox sevirmiş. Necə bir təsadüfdür ki, keçirilən prezident seçkiləri elə ayın 7-də Ulu Öndərin yoluna 7-ci dəfə etimadı oldu bu xalqın. Bəlkə də, bu təsadüf deyil, yüz ildə bir dəfə dünyaya gələn dahinin, Tanrının Azərbaycan xalqına lütfü olan Ümummilli Lider Heydər Əliyevin arzusu idi ki, reallığa çevrildi. Müqəddəs rəqəm sayılan yeddinin sehrli gücü idi, bəlkə də. Bütöv Azərbaycanın Cıdır düzündə dünyanın ən uca və legitim tribunasından qələbə çıxışı edən liderinin səsinə səs verməyi ona sonsuz etimadıdır.

**Ramiyyə ƏKBƏROVA**



## Naxçıvanda Xocalı faciəsi qurbanlarının xatirəsi ehtiramla anılıb

Fevralın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət ediblər.

Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar abidə önünə güllər qoyulub, soyqırımı qurbanlarının xatirəsinə ehtiram ifadə olunub.

**"Şərq qapısı"**


Hər şey ədalətli olacaq 2

Naxçıvanda doğum günü fevral ayında olan şəhidlərin xatirəsi anılıb 2

Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib 4

Qələbəmizə Xocalı ucalığından baxmaq xoşbəxtliyi 5

"Media Ordubadda" layihəsinə start verildi 8

Elm səmasını aydınladan təbəssümlər 12




# Hər şey ədalətli olacaq

# 32 ildən sonra, yaxud 300 il keçsə də

İlahi ədalət deyilən bir məfhum var. Düzdür, əksər hallarda beynəlxalq hüquq gücün tərəfində durur, ədaləti gözardı edir. Amma bu gün yaşadığımız dünyada, nəhayət, ədaləti də gücün özü təmin edir. Necə ki Azərbaycan bunu etdi. Ədaləti bərpa etdi, addım-addım, zərrə-zərrə gətirdi. Həqiqət kar, kor, topal, lal olsa da, onu gətirmək üçün illərlə çəkilən zəhmətin, gərgin əməyin bəhrəsinə hər birimiz şahidlik etdik.

Tarix bizim taleyimizə Xocalı soyqırımı adlı bir dəhşəti yaşamağı yazdığı kimi, o tarixi dəyişib qalib xalq olaraq həmin günü Xocalıda yad etməyi də nəsib etdi. Həm də 32 ildən sonra. Bizə bu tarixi məcbur qəbul etdirəcəkmiş kimi davransalar da, Ali Baş Komandan o yazını pozdu və tarixi yenidən yazdı. Biz doğma torpağımıza qayıtdıq. Həm də Qərbin, erməni havadarlarının bizim əleyhimizə işləyən bütün cidd-cəhdlərinə, hətta bizə sanksiya tətbiq etmək qədər irəli gedə biləcək davranışlarına, əl atdıqları bütün siyasi-diplomatik yollara baxmayaraq. Mərdi-mərdanə onların qarşısında durub, hər kəsi yerinə oturdub, susdurub onlara bu qələbəni izlətdirdi, izləməyə məcbur etdi.

Azərbaycan Prezidentinin fevralın 26-da – Xocalı soyqırımının 32-ci ildönümündə Xocalı şəhərinə səfəri, Xocalı Soyqırımı Memorialının təməlinin qoyulması, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü Azərbaycan tarixinin yeni mərhələsinin başlanğıcı olmaqla yanaşı, doğma torpaqlara qayıdışımızın, bu torpaqlara sahibliyimizin və qurub-yaradan xalq olmağımızın dünyaya növbəti bəyanı kimi tarixə yazıldı.

O da məlum gerçəkdir ki, Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir və heç vaxt xalqımızın yaddaşından silinməyəcək, Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq. Azərbaycan xalqı, dövləti bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün çox səylər göstərdi və haqlı olaraq dünyadan ədalət tələb etdi. Əfsuslar olsun ki, Azərbaycanın "Xocalıya ədalət!" çağırışı cavabsız qaldı.

Xocalı soyqırımını inkar etmək isə ədalətsizlik və vicdansızlıqdan başqa bir şey deyil. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın. Amma cənab Prezident də tarixi görüşdə dediyi kimi: ***"Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın".***

İşğal dövründə köçkünlərlə görüşlərdə, hər bayramda, hər şad gündə səsləndirilən ***"gün gələcək və biz bütün torpaqlarda Azərbaycan Bayrağını qaldıracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik"*** fikirləri artıq reallığın tam özüdür. 2023-cü il oktyabrın 15-də – hakimiyyətinin 20-ci ilində Xocalıda Azərbaycan Bayrağını ərşə qaldıran cənab Prezident xalqımıza bu sevinci, xoşbəxtliyi nəsib etdi.

İndi Xocalıda böyük abadlıq işləri görülür. Hazırda beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtsa da, bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək. Ümummilli Liderin uzaqgörən strategiyasının davam etdirilməsi nəticəsində son 30 il ərzində görülmüş işlər, aparılan məqsədyönlü siyasət bu günü bu torpaqlarda yaşamaq üçün bizə imkan yaradıb. Otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq. Otuz iki ildən sonra biz Azərbaycanın hər bir guşəsinin, Qarabağın sahibi kimi dünyaya gücümüzü, həmrəyliyimizi, Qalib Sərkərdə ətrafında sıx birliyimizi əyani şəkildə növbəti dəfə sübut etdik.

Xocalı ictimaiyyəti ilə görüşündə Ali Baş Komandan cənab İlham Əliyev 2020-ci ilin noyabr zəfəri ilə bağlı xüsusi bir məqama da toxundu: ***"Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq".***

Bəli, hər şey ədalətli oldu; Azərbaycanın ərazi bütövlüyü, hüquqları, suverenliyi çərçivəsində. Azərbaycan ədaləti özü təmin etdi. Baxmayaraq ki, onilliklər ərzində Azərbaycan dövləti çalışdı ki, bu qanlı cinayəti törədənlər ədalət qarşısında cavab versinlər. Ancaq gördük ki, bu ədaləti ancaq biz özümüz bərpa etməliyik. İkinci Qarabağ müharibəsi bu ədalətin təntənəsi idi. Azərbaycan tərəfinin apardığı bütün hərbi əməliyyatlar beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparıldı. Xalq öz lideri ətrafında bir yumruq kimi birləşərək düşmənin belini qırdı.

Tarixi Zəfərimizdən sonra Azərbaycan xalqı bu dəhşətli soyqırımının ildönümünü artıq fərqli şəkildə anır. Torpaqlarımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən azad edilməsi nəticəsində Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətən uğrunda həlak olmuş digər şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı.

Azərbaycan Ordusu isə dəfələrlə və dəfələrlə sübut etdi ki, həm peşəkardır, həm vətənpərvərdir, həm bacarıqlıdır, həm də əməliyyatları elə aparır ki, qısa müddət ərzində həlli mümkün sayılmayan əməliyyatları yerinə yetirir. İndi Ermənistan qəbul etməlidir ki, regionda Azərbaycanın iştirakı olmadan heç bir beynəlxalq layihə, geostrateji proses baş verə bilməz. İki dəfə kapitulyasiyaya imza atmağa məcbur edilən Ermənistan əmin olmalıdır ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir.

Bu gün biz Xocalıdayıq. Burada olmağımız isə tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur. Otuz iki il öncə Xocalıdan məğlub çıxan insanlar Xocalıya qalib olaraq gəlib. Bu qalibiyyəti qazandıran isə cənab Prezidentin rəhbərliyi, sərkərdəliyi, müdrik siyasətidir. Ali Baş Komandan olaraq O bu qələbəni təkcə Azərbaycan xalqına yox, bütün Türk dünyasına qazandırdı.

Cənab Prezident ictimaiyyət nümayəndələri ilə görüşdə dedi ki: ***"Bu diyarın, bu bölgənin artıq yeni, parlaq tarixi var, o da 20 sentyabr – Xocalının, Xankəndinin azad olunması günüdür".*** Buna görə də Xocalı soyqırımının 32-ci ildönümündə bu torpaqları ziyarət etmək, o məzarsız şəhidlərimizin sanki məzarını ziyarət etmək qədər müqəddəs bir missiyadır. 32 il sonra Novruzun ilk çərşənbəsində tonqallar yandırıldı Xocalıda. Yanan tonqallar o şaxtalı gecədə donan ruhlara bir məlhəm, bir işıq oldu. Yol göstərdi onlara, azadlığın yolunu göstərdi.

Bir qərinənin məşum sükutunu igidlərin ayaq səsi pozdu. Ali Baş Komandanın gur səsi pozdu, onun ərşə çəkdiyi bayrağın küləkdə dalğalanan səsi pozdu. İnşaat səsləri pozur indi bu sükutu və səbirsizliklə öz sakinlərini, doğmalarını gözləyir bu qədim yurd yeri, düşmən tapdağından azad, təmiz səmalı, çiçəklənmə yolunda inamla addımlayan Xocalı.

Amma bu tarixi heç vaxt unutmayacağıq. Cənab Prezidentin dediyi kimi: ***"Hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq".***

**Məmməd BABAYEV**



# Naxçıvanda doğum günü fevral ayında olan şəhidlərin xatirəsi anılıb

Fevralın 27-də "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə fevral ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin, eləcə də tələbə-gənclərin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan televiziyasının doğum günü fevral ayında olan şəhidlərlə bağlı hazırladığı video-çarx nümayiş etdirilib, Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri videoçarxda adları çəkilən 56 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretləri ilə səhnəyə çıxıblar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, fevral ayında Azərbaycan tarixinin ən ağır səhifələrindən biri olan Xocalı faciəsi baş verib. Həmin qanlı hadisədə 613 həmvətənimiz xüsusi amansızlıqla qətlə yetirilib. Birinci və İkinci Qarabağ müharibələrində bu cür bədxahlarla müharibə aparmışıq. Lakin qarşısında "dəmir yumruğ"u görən mənfur düşmən bildi ki, güclü kimdir. Ali Baş Komandanımızın qətiyyəti və qəhrəman övladlarımızın səyi nəticəsində bu gün bayrağımız Xocalıda, Şuşada, Xankəndidə və digər əzəli torpaqlarımızda dalğalanır. İlk dəfə prezident seçkiləri bütöv Azərbaycanımızda keçirildi. Bu gün Qarabağımızı, Şuşanı, Xankəndini, Xocalını işğaldan azad edən qəhrəman şəhidlərimizin ruhları şaddır.



Azərbaycan Ordusunun bundan sonra daha da qüdrətlənəcəyini, Vətənimizin daha da çiçəklənəcəyini deyən Fuad Nəcəfli şəhidlərə Allahdan rəhmət diləyib, onların valideynlərinə səbir və qazilərə cansağlığı arzulayıb.



"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid baş leytenant Amin Gülməmmədovun atası Mayis Gülməmmədov səlahiyyətli nümayəndəliyin dəstəyi ilə bu mövzuda ikinci tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb. Bildirib ki, şəhidlər ölmür, daim yaşayır. Çünki şəhidlər torpağı qoruyub, bu yolda canından keçib. Şəhid qanı tökülən o torpaqlar hər birimiz üçün müqəddəsdir. Bu gün həmin torpaqlarda aparılan quruculuq işlərini, dalğalanan üçrəngli bayrağımızı, öz sahiblərinin yurd yerlərinə qayıdışını hər bir şəhid valideyni qürurla izləyir, fəxarət hissləri keçirir.

Şəhid Ramazan Göydağlının atası Əbülfət Əliyev və şəhid leytenant Mərhəmət Həmzəyevin anası Qərənfil Həmzəyeva tədbirin təşkilinə, eyni zamanda göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər. Şəhid valideynləri gənclərə şəhidlərimizi unutmamağı, onların fədakarlıqlarını örnək götürməyi və geniş təbliğ etməyi tövsiyə edib.

"Naxçıvan Qaziləri" İctimai Birliyinin üzvü Samir Cəfərov döyüş xatirələrindən danışıb, Vətən oğullarının qəhrəmanlıqlarından bəhs edib.

Sonda Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının kollektivi şəhidlərin əziz xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim edib.

**"Şərq qapısı"**

# Ordubadda Vergi Ödəyicilərinə Xidmət Mərkəzi istifadəyə verilib



Fevralın 27-də Ordubad şəhərində Vergi Ödəyicilərinə Xidmət Mərkəzi istifadəyə verilib.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli, muxtar respublikanın dövlət və hökumət rəsmiləri, sahibkarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ölkə başçısının 21 fevral 2024-cü il tarixli Sərəncamı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması münasibətilə təbriklərini çatdırıb, bu sənədi gələcək islahatlar və yeni layihələrin başlanğıcı kimi dəyərləndirib.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri ilə birlikdə ötən il fevralın 9-da Naxçıvanda sahibkarlarla keçirilən görüşü xatırladan Fuad Nəcəfli vurğulayıb ki, həmin görüşdə sahibkarların müraciətləri əsasında Naxçıvanda yerlərdə vergi ödəyiciləri üçün bu cür xidmət mərkəzlərinin qurulmasının vacibliyi diqqətdə saxlanılıb. Ötən il Naxçıvan şəhərində Vergi Ödəyicilərinə Xidmət Mərkəzi istifadəyə verilib. Bu gün isə analoji xidmətlər Ordubad və Şərur rayonlarında təşkil olunur.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın artıq ötən ildən icra olunduğunu bildirən səlahiyyətli nümayəndə vurğulayıb ki, bugünkü açılış tədbiri də Dövlət Proqramının icrası ilə birbaşa əlaqədardır. Vergi Ödəyicilərinə Xidmət Mərkəzi bu sahədə işin səmərəliliyini və xidmətin keyfiyyətini daha da artıracaq. Mərkəzin müasir imkanları hesabına vergi ödəyicilərinin müraciətlərinə qısa zamanda reaksiya veriləcək, problemləri yerində həll olunacaq. Bütün bunlar sahibkarlığın inkişafına böyük dəstəkdir. Fuad Nəcəfli belə layihələrin davam etdiriləcəyini deyib, mərkəzin istifadəyə verilməsi münasibətilə təbriklərini çatdırıb.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin açılışının muxtar respublikanın biznes mühitində mühüm hadisə olduğunu bildirib, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılmasına xidmət edəcəyini vurğulayıb. Qeyd edilib ki, hazırda ölkə üzrə müasir standartlara cavab verən 59 belə xidmət mərkəzi uğurla fəaliyyət göstərir. Diqqətə çatdırılıb ki, Ordubad şəhərində ən yeni avadanlıqlarla təchiz edilmiş xidmət mərkəzinin istifadəyə verilməsi ölkə üzrə müasir standartlara cavab verən geniş xidmət mərkəzlərinin daha bir halqası olmaqla sahibkarlara hesabatların göndərilməsində, vergi qanunvericiliyi sahəsində maarifləndirmə prosesində, müxtəlif vergi xidmətlərinin əldə edilməsində böyük dəstək göstərəcək.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov bildirib ki, muxtar respublikada fəaliyyət göstərən vergi ödəyiciləri üçün vergi xidmətlərinin əlçatanlığının daha da artırılması və könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunması məqsədilə Ordubad şəhərində xidmət mərkəzi sahibkarların və vətəndaşların istifadəsinə verilir. Xidmət mərkəzində 9 mindən artıq vergi ödəyicisinə müvafiq istiqamətlər üzrə bütün xidmətlər təqdim ediləcək və onların vergi məsələlərinin həllinə dəstək göstəriləcək. Muxtar respublikada fəaliyyət göstərən bütün vergi ödəyicilərini əhatə etmək məqsədilə Babək şəhərində də belə bir mərkəzin tikintisinə başlanılıb. Bununla da muxtar respublikada xidmət mərkəzlərinin sayı 4-ə çatdırılacaq. Bütün bunlar "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə öz töhfəsini verəcək.

Sonra Vergi Ödəyicilərinə Xidmət Mərkəzi ilə tanışlıq olub. Tədbir iştirakçıları mərkəzin tikinti prosesi haqqında videoçarxa baxıb, buradakı texniki imkanlar və vergi ödəyiciləri üçün yaradılmış şəraitlə tanış olublar.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi vəzifəsini müvəqqəti icra edən, xidmətin rəis müavini Anar İbrahimov muxtar respublikada yaradılmış əlverişli biznes mühiti və tətbiq edilən müasir vergi inzibatçılığı nəticəsində 2023-cü il ərzində əldə edilmiş bəzi göstəricilər barədə təqdimat edib. Qeyd olunub ki, son 1 il ərzində mühüm struktur islahatları aparılıb, Vergi Ödəyicilərinə Xidmət mərkəzlərində fəaliyyətin operativ və səmərəli təşkili üçün bu sahədə fəaliyyət göstərən əməkdaşların sayı 2,4 dəfə artırılıb.

Bildirilib ki, ən yeni avadanlıqlarla təchiz edilmiş müasir dizaynlı xidmət mərkəzi geniş funksiyalara malikdir. Vergi Ödəyicilərinə Xidmət Mərkəzində sahibkarlara vergi uçotuna alınmaq, vergi qanunvericiliyinin tətbiqi, vergi bəyannamələrinin tərtib edilməsi və göndərilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması və "ASAN İmza" sertifikatlarının verilməsinə dair xidmətlər göstəriləcək. Burada, həmçinin müraciət edənlər üçün özünəxidmət bölməsi açılıb, onların büdcəyə olan borclarını öyrənmək və öz şəxsi vərəqələrinə nəzər salmaq imkanı yaradılıb. Sabit vergi ödəyən fiziki şəxslər sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi də xidmət mərkəzindən əldə edə biləcəklər. Bununla yanaşı, mərkəzdə şəhid ailələri və qazilərin xidmətlərdən rahat yararlanması üçün növbədənkənar xidmət otağı yaradılıb.

Ən son texnoloji yeniliklər, elektron növbə və müasir xidmət avadanlıqları ilə təmin olunan mərkəzə müraciət edən vergi ödəyicilərinə xidmət prosesi əyani şəkildə göstərilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə xatirə hədiyyələri təqdim olunub.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti işçilərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vergi orqanlarında səmərəli fəaliyyətlərinə görə fərqlənən aşağıdakı şəxslər təltif edilsinlər:

**"Rəşadətli əməyə görə" nişanı ilə**

Abbasova Aysel Yusif qızı
Eyvazova Gülşən Tofiq qızı
Əliyev Rəfail Əli oğlu
Əliyev Süleyman Yunis oğlu
Qənbərov Zahid Paşa oğlu
Quliyev Elməddin Hüsaməddin oğlu
Məsumova Xədicə Hacı qızı
Rzayev Rəşad Əli oğlu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 27 fevral 2024-cü il*

## S.N.Cəfərovun Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Seymur Nazim oğlu Cəfərov Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə rəis təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini Seymur Nazim oğlu Cəfərova həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 fevral 2024-cü il*

## M.Ə.Cabbarzadənin Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müslüm Əli oğlu Cabbarzadə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə rəis təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Müslüm Əli oğlu Cabbarzadəyə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 fevral 2024-cü il*

## A.V.İbrahimovun Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Anar Vaqif oğlu İbrahimov Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə rəis təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Anar Vaqif oğlu İbrahimova həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 fevral 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən fevral ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edilmiş, sərəncamlar imzalanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanına əsasən Nazirlər Kabinetinin 2024-cü il 16 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin göstərdiyi ödənişli xidmətlərdən daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" və "Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin icbari tibbi sığorta təminatına daxil edilməsi haqqında" qərarlar ləğv edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliklərində publik hüquqi şəxslərin yaradılması barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2024-cü il 22 fevral tarixində Sərəncam imzalanmışdır. Adıçəkilən Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ-hüquqi aktlarını və ya təkliflərini olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etməli və icra vəziyyəti tələb etdikdə Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılmışdır.

Həmçinin Nazirlər Kabineti tərəfindən imzalanmış eyni tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının ştat sayının müəyyən edilməsi və "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Qərarı ləğv edilmişdir.

Nazirlər Kabinetinin 2024-cü il 22 fevral tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi"ndə və "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nda dəyişiklik edilmişdir. Dəyişikliyə görə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etmələri tapşırılmışdır.

Ali Məclis sədrinin Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Nazirlər Kabinetinin bəzi qərarları ləğv edilmiş, bəzi qərarlarında isə dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2024-cü il 26 fevral tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun tabeliyində olan "Naxçıvan Gənclik Mərkəzi" Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2024-cü il 28 fevral tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibi təsdiq edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında əlilliyi olan şəxslərin reabilitasiyası vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən qəbul olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda, həmin sənədlər vətəndaşdan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunur və ya vətəndaş tərəfindən təmin edilir.

# Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib



Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının növbəti plenar iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında hazırlanmış "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi

3. Cari məsələlər

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədr müavini Anar İbrahimov iclasın gündəliyində duran birinci məsələ ilə bağlı bildirib ki, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə 6 oktyabr 2023-cü il tarixdə dəyişikliklər edilib. Ali Məclisin Daxili Nizamnaməsində həmin dəyişikliklərə müvafiq uyğunlaşdırma aparmaq məqsədilə qanun layihəsi hazırlanıb, deputatlara paylanılıb və Hüquq siyasəti komitəsində müzakirə olunub.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Ali Məclis sədrinin müavini Anar İbrahimov qeyd edib ki, "Media haqqında" Azərbaycan Respublikasının Qanunu və buna müvafiq olaraq qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasında çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının dəqiq siyahısı müəyyən edilib. Müvafiq normativ hüquqi aktlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin çap mediası subyektinin təsisçisi olmaq səlahiyyəti nəzərdə tutulmayıb. Belə olan halda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin təsisçisi qismində çıxış etməsi mövcud qanunvericiliklə ziddiyyət təşkil edir. 1921-ci ildən nəşr edilən, ölkəmizin və muxtar respublikamızın ictimai-siyasi həyatında özünəməxsus rolu olan muxtar respublikada yeganə rəsmi qəzetin gələcək fəaliyyətinin tənzimlənməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququndan istifadə etmək qərarına gəlib. Ali Məclisin qanunvericilik təşəbbüsü hüququ əsasında "Media haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edilməsi məqsədilə Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanıb. Layihə "Media haqqında" Qanunun 59.2-ci maddəsinə dəyişiklik etməklə siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilən orqanlar (qurumlar), Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin də çap mediası subyektinin təsisçisi olmasını nəzərdə tutur. Təqdim edilən Azərbaycan Respublikasının Qanun layihəsi Ali Məclisin Daxili Nizamnaməsinin müvafiq maddələrinə uyğun olaraq Ali Məclisin iclasında baxılmaq üçün hazırlanıb, deputatlara paylanılıb, 20 fevral 2023-cü il tarixdə isə Hüquq siyasəti komitəsinin iclasında müzakirə olunub. Müzakirələrin nəticəsi olaraq Hüquq siyasəti komitəsi tərəfindən Qanun layihəsinin "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 2010-cu il 21 dekabr tarixli Konstitusiya Qanununun tələblərinə uyğun hazırlandığı qeyd olunub, layihənin baxılması və qəbul edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunması barədə rəy qəbul edilib.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli qanun layihəsi barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Deputat Asim Əliyev "Şərq qapısı" qəzetinin muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi və ədəbi-mədəni həyatındakı rolundan, Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi illərdə muxtar respublikanın, ümumilikdə, Azərbaycanın gələcək taleyi ilə bağlı verilən mühüm qərarların qəzet vasitəsilə xalqa çatdırılmasından danışıb.

Anar İbrahimov bildirib ki, "Şərq qapısı" qəzeti Ali Məclisin normativ hüquqi aktlarının dərc olunduğu yeganə qəzetdir. Bundan başqa, qəzet Ulu Öndər və Naxçıvanın böyük irsinin tərkib hissəsidir. Ümid edirik ki, buna görə də Milli Məclis məsələyə həssas yanaşacaq, qanunda müvafiq dəyişiklik həyata keçiriləcək.

Ali Məclis sədr müavini qeyd edib ki, Ali Məclisin Daxili Nizamnaməsinin müvafiq maddəsinə əsasən Ali Məclisin qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının müvafiq qanununun qəbul edilməsini nəzərdə tutan layihə deputatların 23 səs çoxluğu ilə qəbul edilir. Bu barədə qəbul edilən qərar Ali Məclis sədrinin müşayiət məktubu və müvafiq layihə əlavə olunaraq baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

Sonra "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi oxunduqdan sonra səsə qoyularaq qərar qəbul olunub.

Cari məsələlərin müzakirəsi zamanı deputatlardan Turan Məmmədli, Yeganə Məmmədova, Aidə Allahverdiyeva, Esmira Həsənova və Əmir Babayev içməli su təminatı, əhalinin məşğulluğunun təmin olunması və digər mövzularda çıxış ediblər.

Anar İbrahimov deputatlar tərəfindən qeyd olunan müraciətlərin ümumiləşdirilərək, Nazirlər Kabinetinə göndərilməsi barədə tapşırıq verib.

Bununla da Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda "Dövlət satınalmaları haqqında" yeni Qanunun tətbiqi ilə bağlı görüş keçirilib



Martın 1-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikası



İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının yeni Qanununun tətbiqi ilə bağlı təlim-konfrans keçirilib.



Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək 2023-cü ili muxtar respublika üçün əlamətdar və uğurlu il kimi dəyərləndirib. Bildirib ki, ötən il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi geniş qeyd edilib, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını təmin edən Dövlət Proqramı təsdiq olunub. Ötən il Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə Naxçıvanda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib, onların problemlərinin həlli, şəffaf biznes mühitinin formalaşması istiqamətində mühüm addımlar atılıb.

Səlahiyyətli nümayəndə qeyd edib ki, ötən dövrdə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın Təfsilatlı Tədbirlər Planı hazırlanaraq icrası üçün maliyyə vəsaiti ayrılıb. Bu cür layihələrin icrasında dövlət satınalmaları üzrə proseslərin səmərəli təşkili mühüm önəm daşıyır. Bu istiqamətdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyini xüsusilə vurğulayan səlahiyyətli nümayəndə nəzərdə tutulan tədbirlərin icrası istiqamətində birgə mühüm işlərin görüldüyünü diqqətə çatdırıb.

Fuad Nəcəfli vurğulayıb ki, muxtar respublikada bir sıra qurumlarda komplektləşdirmələr tam yekunlaşdırılmayıb. Əvvəlki idarəetmə sistemi üzrə ortaya çıxan nöqsanlar icra məsələlərində müəyyən problemlərə səbəb olur. Xüsusilə dövlət satınalmaları sahəsində ciddi nöqsanlar aşkar olunub. Dövlət satınalmaları sahəsində yeni qanunun tətbiqi bu istiqamətdə ortaya çıxan problemlərin həllində, şəffaflıq prinsipinin təmin olunmasında və sözügedən sosial-iqtisadi inkişaf proqramının icrasında çox faydalıdır.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli tədbirin təşkilinə və səmərəli əməkdaşlığa görə Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarova və nazirliyin kollektivinə təşəkkür edib, təlim-konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov ötən il ərzində dövlət satınalmaları sahəsində görülən işlər və həyata keçiriləcək tədbirlər barədə məlumat verib. Bildirilib ki, dövlət satınalmaları sahəsində nəzarət tədbirlərinin nəticəsi kimi 9,5 milyon manat və ya 16 faiz dövlət vəsaitinə qənaət edilib. Qənaətin 92,5 faizi açıq tender, 0,3 faizi təkliflər sorğusu, 7,2 faizi isə kotirovka sorğusu üsulu ilə keçirilən satınalmalarda əldə olunub. Satınalma prosedurlarının nəticələrinə dair satınalan təşkilatlardan daxil olan 534 yekun protokolun 8,8 faizində nöqsanlar aşkar edilib və bununla əlaqədar həmin satınalmaların nəticələri ləğv edilib. 2023-cü ildə muxtar respublikada keçirilən satınalmaların toplam dəyəri 59,2 milyon manat olub ki, bu da ötənilki büdcə xərclərinin 10 faizindən çoxunu təşkil edib.

Vurğulanıb ki, 2023-cü ildə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən muxtar respublikada dövlət satınalmalarında iştirak edən tərəflərin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə iki təlim keçirilib, 250-yə yaxın dövlət müəssisə və təşkilatı iştirak edib.

Sonra Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini, rəis vəzifələrinin müvəqqəti icraçısı təyin edilən Seymur Cəfərov kollektivə və dövlət orqanlarının rəhbərlərinə təqdim olunub.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli dövlət satınalmalarının rəqabət mühitinin formalaşmasına təsirlərindən bəhs edib, həmçinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının yeni Qanununda satınalma prosedurlarının təkmilləşdirilməsi və nəzarət mexanizmlərinin gücləndirilməsinin sahibkarları satınalmalarda daha aktiv iştiraka təşviq edəcəyini qeyd edib.

Məmməd Abbasbəyli bildirib ki, istehlakçıların hüquq və mənafelərinin qorunması əsas məqsəddir, bu məqsədi hədəf alan yeni qanun rəqabət əsaslı dayanıqlı iqtisadi inkişafı təmin edəcək. Yeni mexanizmlə tənzimlənən dövlət satınalmaları prosesinə uyğun olaraq 20-yə yaxın qayda müəyyənləşdirilib və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilib. Nəticədə, bütün dövlət satınalmaları prosesi elektronlaşaraq sahibkarlar üçün əlçatanlıq, eləcə də şəffaflıq və optimallaşma prinsipləri əsasında qurulub.

Təlim-konfransda yeni qanunun əhatə dairəsinin genişlənməsi, üstünlükləri və nəzarət mexanizmləri barədə məlumat verilib, dövlət satınalmalarının vaxtında və düzgün planlaşdırılmasına dair müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

**"Şərq qapısı"**



# Şərur şəhərində Vergi Ödəyicilərinə Xidmət Mərkəzi istifadəyə verilib

Fevralın 27-də Şərur şəhərində Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin açılışı olub.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov, sahibkarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, 2023-cü il Naxçıvan Muxtar Respublikası üçün çox əlamətdar olub. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul edilib. Sevindirici haldır ki, proqramda qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin də dəstəyi ilə muxtar respublikada Vergi Ödəyicilərinə Xidmət mərkəzləri istifadəyə verilib və artıq bu gün növbəti belə mərkəzin açılışında iştirak edirik. Qeyd olunub ki, yeni xidmət mərkəzləri vergi ödəyicilərinin maarifləndirilməsinə, şəffaflığın artırılmasına, sahibkarlığın inkişaf etdirilməsinə öz töhfəsini verəcək.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli müasir üslubda inşa olunmuş mərkəzin açılışının Naxçıvanda vergi ödəyicilərinə xidmət dairəsinin genişləndirilməsi tədbirlərinin növbəti mərhələsi olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov bildirib ki, yeni xidmət mərkəzləri vergi ödəyicilərinə müasir xidmətlər göstərməklə yanaşı, bu sahədə qarşıya qoyulan tapşırıqların da uğurla həll olunmasına imkan verəcək.

Sonra Vergi Ödəyicilərinə Xidmət Mərkəzi ilə tanışlıq olub. Tədbir iştirakçıları mərkəzin tikinti prosesi haqqında videoçarxa baxıb, mərkəzin texniki imkanları və vergi ödəyiciləri üçün yaradılmış şəraitlə tanış olublar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 27 fevral tarixli Sərəncamına əsasən xidmətin təltif olunan bir qrup əməkdaşına "Rəşadətli əməyə görə" döş nişanları təqdim olunub.

**✍ Səbuhi HƏSƏNOV**

# Qələbəmizə Xocalı ucalığından baxmaq xoşbəxtliyi



Salam olsun o müqəddəs və yaralı ruhunuza, ey Xocalı şəhidləri. Qəlbimdən qopan hər pıçıltımı diqqətlə seçib bu sətirləri qələmə almaq istəyirəm. Axı siz Azərbaycan xalqının qaysaq bağlamayan yarası, acı nisgili, əbədi qan yaddaşısınız.

32 il bundan öncənin soyuq bir fevral gecəsində qana susamış vicdanını, heç əvvəlcədən olmayan insanlığını, kor doğulmuş heysiyyətini, insafını itirmiş, dünənə qədər süfrəmizin artığı ilə yallanan vəhşi bir qəbilənin qurbanına çevrilmək nə yaman dərd imiş, İlahi. Bəs nə idi Xocalıdan olan 613 insanın – ana bətnindəki uşağın, qucaqdakı körpənin, yaşlının, ahılın, ağsaqqal və ağbirçəyin qəbahəti? Türk olmaqmı, yoxsa damarlarında azərbaycanlı qanı gəzdirmək idimi günahımız? O




gecə Xocalı saxta bir ideologiyanın – "dənizdən dənizə böyük Ermənistan" qurmaq istəyənlərin hərisinə çevrildi. Balayanların, sarkisyanların, nə bilim başqa nə kimi yanların XX əsr boyu azərbaycanlılara qarşı qusduğu kinin, nifrətin kulminasiyası idi bu insanlıq cinayəti.

Fevralın 25-dən 26-na keçən o məşum gecə... Körpələrin nidası, anaların, qız-gəlinlərin ah-naləsi dağlara, meşələrə yayıldı o axşam. Qarlı-boranlı dağlarda qucağında yavrun, əliyalın dayanmaq, durmaq bilmədən qaçırsan, arxandakı isə quduz bir vəhşidir. Dəhşətli mənzərədir, deyilmi? Qanını damarlarda dondurmurmu? İnsanoğlu Ulu Yaradana bir can borcludur, gec-tez bunu ödəyəcək. Amma ölümün, son nəfəs verməyin bu formasını heç kimə, hətta vəhşi erməniyə də arzulamadı o gecə xocalılılar. Namusumuza, heysiyyətimizə, qürurumuza toxunmuşdu o gecə mənfur düşmən. Yandırıb kül etmişdi o gözəllər gözəli Xocalını. Sanki dünya binə olandan bəri yox imiş belə bir şəhər, belə bir məmləkət.

Bizim uşaqlığımız Çingizin ahnalə ilə Xocalıdan çəkdiyi o kadrlarda ilişib qaldı. Qucaqda donvurmuş körpə, dərə-təpələrə toxum kimi səpələnmiş insan cəsədləri. Biz böyüdükcə Xocalı adlı yaramızı da daha dərindən dərk etdik. Canımızdan, qanımızdan bir parça oldu Xocalı. Oğul-uşağımıza başa saldıq ki, çəkiləsi dərd olmasa da, yazın hafizənizin ən dərin qatına bu dərdi. Qoy damarlarınızda axan qan olsun Xocalı. Bu insanlıq faciəsinin, qara ləkəsinin qisası qiyamətə qalmamalıdır, bağışlamaz bizi Pənahəli xan, Xan qızı Natəvan, bağışlamaz bizi ulu əcdadlarımız. Dünya bizə hayan duran, haqq səsimizə səs verən deyildi. Mənfur ermənini ədalət tərəzisinə özümüz çıxarmalı, haqq-hesabı çürütməli idik. Bunu bizdən azərbaycanlı qanı, böyük xalq olmağın məsuliyyəti, cavabdehliyi tələb edirdi. Düz tələb edirdi.

30 il bir igid ömrüdür. Yəqin, kimsə belə düşünürdü ki, zaman yaraları sağaldıb, Azərbaycan üçün bu faciə keçmişdə qaldı daha... Elə ola bilərdimi?..

Xocalı həqiqətlərini dünyaya çatdırmaqla bərabər həm də dövlət səviyyəsində ideoloji iş apardıq, qəlbimizin acısını, ağrısını evdəki uşağımıza aşılaya bildik. Biz onlara gələcəyimizin gözü ilə baxdıq, biz onlara əsgər, zabit, Vətənin təəssübünü, qeyrətini çəkən OĞUL dedik. Onları elə bir ruhda tərbiyə etdik ki, faciəni iliklərinə qədər yaşadılar. Qarşıda isə bizi daha da ucalmaq, məğrurlaşmaq, böyümək, ən əsası qalib olmaq kimi şərəfli bir yol gözləyirdi.

...Bu YOLun BƏLƏDÇİSİ dövlətçilik tariximizə "Qalib" möhürünü vurmuş cənab İlham Əliyev olacaqdı. İllərlə siyasi səhnədə səbir nümayiş etdirir, öz ordusunu gücləndirməyin qayğısına qalırdı. O, uzaqgörən, nəyi necə, nə vaxt etmək lazım olduğunu bilən LİDER olduğuna görə xalqı da Ona arxalandı, Onun qərarlarına, əmrinə müntəzir dayandı. "Zəfər" bir söz kimi 5 hərfdən ibarət olsa da, o, asanlıqla qazanılmır. Xalq-Lider-Ordu birliyi, yuxusuz gecələr, praqmatik siyasət, vaxtında verilmiş düzgün qərarlar var bu sözün tərkib hissəsində. 44 günə əldə etdiyimiz bu Böyük Qələbəni cənab İlham Əliyev ilmə-ilmə toxumaqla "Zəfər" sözündən ən qürurlu cümlələr qurmağı xalqa ərmağan etdi. Ən yaxın tarixdə – 2023-cü ilin sentyabrındakı antiterror əməliyyatı ilə Xocalı səmasındakı qara buludların yerinə Azərbaycan Bayrağı ucaldı. Torpaq arındı – murdar ayaqdan, işğalçı niyyətdən, barbar düşüncədən, quduz təfəkkürdən. Xocalı adlı yaramıza məlhəm olmaq üçün ƏBƏDİ qayıtdıq. O gün Qalib əsgər üçrəngli bayraq qarşısında, Xocalıda diz çökdü və and içdi ki, bir də bu torpaqlarda belə faciələr yaşanmayacaq.

Ehhheyyy dünya, eşidirsən? Biz qayıtmışıq! Xocalının qisasını ermənidən almışıq! ***"Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi"***, – deyən Qalib Liderimizlə, bizimlə birgə yaşamaq istəməyən erməniləri xoş rəftar, əmin-amanlıqla sərhədimizdən yola salan əsgərimizlə, hər şeyə rəğmən sülh təklif edib böyük, özü də ÇOX BÖYÜK olduğumuzu göstərən XALQımızla qayıtmışıq! Sənin üçün çox darıxmışdıq, indi möhkəm sarılmaq, həsrətimizi ovutmaq vaxtıdır, Xocalı!

Son söz... Azad Xocalıdan yazı yazmaq, hisslərimizi ifadə etmək xoşbəxtliyini bizə yaşatdığınıza görə var olun, möhtərəm Prezident! Allah bütün şəhidlərimizin məqamını uca etsin!

**Sara ƏZİMOVA**
*"Şərq qapısı" qəzetinin baş redaktoru*
*Naxçıvan-Bakı-Xocalı-Bakı-Naxçıvan*



# Xocalıya yenidən həyat qayıdır

***Xocalılılar bundan sonra öz doğma el-obalarında yaşayacaqlar***

Xocalı sağalmaz yaramız, o dəhşətli faciənin izlərini özündə daşıyan şəhər idi. Dağıdılmış evləri, ekoloji terrora məruz qalmış təbiəti, istifadəyə yararsız avtomobil yolları onun simasına əzginlik, kədər bəxş etmişdi. Amma onu incidən, daha da yaralayan illərdir, öz doğmalarından – azərbaycanlılardan ayrı düşməsi idi...

Uzaqgörən, qətiyyətli, iradəli siyasi Lider, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu bizi doğma Xocalımıza qovuşdurdu. Bu gün Xocalı azaddır, rahat nəfəs alır. Üçrəngli bayrağımız onun səmasında əbədi qaldırılıb. Xalqımız sevinclidir, qürurludur. Ən əsası isə şəhidlərimizin, Xocalı faciəsi qurbanlarının qisası alınıb.

Bu gün Xocalının simasına daha da gözəllik qatan orada geniş vüsət alan tikinti-quruculuq, böyük abadlıq işləridir. Xocalıda yaşayış binaları inşa olunur, şəhərin infrastrukturu yenidən qurulur. Xocalı erməni vandalizminin izlərindən təmizlənir. Havanın soyuq keçməsinə baxmayaraq, quruculuq işləri davam etdirilir. İnşaatçılar arasında digər bölgələrdən olanlar, eləcə də xocalılılar da var. Xocalı şəhərinin ərazisində hazırda 283 fərdi evdə əsaslı bərpa-quruculuq işləri görülür. Rabitə, elektrik, içməli su, kanalizasiya və digər daşıyıcı xətlərin çəkilişi davam etdirilir. Bununla yanaşı, Xocalı ətrafındakı meşəlik ərazilər də minalardan təmizlənir.

Bütün bunlar onu göstərir ki, bu ildən Xocalı həsrəti bitəcək, xocalılılar öz doğma el-obalarına qayıdacaqlar. Onlar Xocalımıza yeni həyat, ruh, can verəcəklər.









# Münhendə bəyan edilən güc:

## işğalçıya vəkillik dövrü bitdi və ya sülh gündəliyi Azərbaycanın arzusu yox, təklifidir



Ötən ay – fevralın 14-dən 16-dək keçirilən Münhen Təhlükəsizlik Konfransı Azərbaycan Prezidentinin dünyaya verdiyi bir çox açıq mesajlarla yadda qaldı. Qalib Lider 2 gün ərzində Almaniyada müxtəlif dövlət və hökumət başçıları, beynəlxalq aparıcı maliyyə mərkəzlərinin rəhbərləri ilə keçirdiyi görüşlərdə bu konfransın ən təcrübəlilərindən biri kimi dövlətimizin hədəf və məqsədlərini də bəyan etdi. Demək olar ki, baş tutan bütün görüşlərin təşəbbüskarları isə qarşı tərəflər oldu. Bu, Azərbaycan Liderinin şəxsi nüfuzu ilə yanaşı, dövlətimizin dünyada etibarlı tərəfdaş, siyasi münasibətlərdə isə səmimi olmasının daha bir ifadəsidir. Ölkəmizin siyasi nüfuzu qlobal məkanda hər keçən gün artır, Avropanın enerji təhlükəsizliyinin təminatçılarından biri kimi Azərbaycanla əməkdaşlıq etmək istəyənlərin də sayı çoxalır. Bu da bir reallıqdır ki, açıq etiraf etməsələr də, Qərbdəki dairələr bəzi məsələlərdə cənab Prezidentin mövqeyini və rəyini öyrənmək istəyirlər. Biz buna nəinki Münhendə, hətta 44 günlük Vətən müharibəsi, eləcə də ondan sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı keçirilən çoxsaylı görüşlərdə şahidlik etmişik.

Diqqətli oxucularımız yaxşı xatırlayır ki, Azərbaycan İspaniyanın Qranada şəhərində 2023-cü il oktyabrın 5-də planlaşdırılan beştərəfli görüşdən imtina etmişdi. Buna səbəb Ermənistan baş nazirinin də iştirakı nəzərdə tutulan görüşdə təşkilatçılardan olan Fransanın destruktiv mövqe tutması, eləcə də Paris və Berlinin Türkiyənin toplantıda iştirak etməsi ilə bağlı fikir ayrılığı olmuşdu. Bundan sonra Qərbdəki bəzi dairələr Azərbaycana qarşı çirkin təbliğat kampaniyası apararaq belə bir imic yaratmağa çalışırdılar ki, guya dövlətimiz özünü münasibətlərdən təcrid edir, başqa sözlə, sülh gündəliyinə yaxın gəlmək istəmir. Halbuki Brüssel və Praqada keçirilən çoxsaylı görüşlərdə məhz Ermənistanın manipulyasiyası və qeyri-səmimiliyi ucbatından sülh müqaviləsinin bağlanılmasına nail olunmamışdı. Üstəgəl, Qərb, xüsusilə indiki dövrdə heç bir aktiv rolu olmayan, bir vaxtlar Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında məsuliyyəti öz üzərinə götürən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən Fransa açıq-aşkar tərəf saxlayaraq Ermənistanın bədbin və işğalçı mövqeyini müdafiə etmişdi.

Qalib Liderin dünyanın aparıcı siyasi və hərbi xadimlərini bir araya gətirən 60-cı Münhen Təhlükəsizlik Konfransında iştirak etməsi və çoxsaylı görüşləri bir daha göstərir ki, süni şəkildə ortaya atılan iddialar əsassızdır, Azərbaycan daim münasibətlərə açıq dövlətdir, bölgədə sülhün və təhlükəsizliyin tərəfdarıdır. Konfrans çərçivəsində kansler Olaf Şoltsun təşəbbüsü ilə Ermənistan və Azərbaycan liderlərinin görüşü təşkil olunsa da, burada Almaniya heç də vasitəçi qismində deyildi. Bəli, görüşdə vasitəçi yox idi. Məhz bu ideya da Azərbaycan Prezidentinə məxsusdur. O, dəfələrlə çıxışlarında bəyan edib ki, münasibətlərdəki normallaşma ikitərəfli xarakter daşımalıdır, burada üçüncü dövlətin iştirakına ehtiyac duyulmur. Başqa sözlə, heç kimin saxta səmimiyyətinə, özünə sərf edən məsləhətinə ehtiyacımız yoxdur. Münhendə liderlər arasındakı birbaşa görüş də sübut etdi ki, kolonialist Makron Fransası və Fransa təfəkküründəki dövlətlərin nazı ilə oynamağın vaxtı çoxdan keçib. Necə ki, Azərbaycan 44 gün ərzində dəmir iradə nümayiş etdirərək öz məsələsini özü həll etdi, sülh gündəliyi məsələsində də, həmçinin... Çünki biz Cənubi Qafqazın lideri, geosiyasi proseslərə müsbət yön verən, qlobal siyasətdə aktiv dövlətik.

Sülh gündəliyi, sərhədlərin delimitasiyası, xalqların birgə yaşayışı ideyası isə Azərbaycana məxsus olsa da, bu bizim arzumuzdan daha çox təklifimizdir. Bizim masa üzərindəki sülh paketimiz isə kifayət qədər anlaşıqlı və başa düşüləndir və burada itirəcək əlavə vaxtımız yoxdur. Cənab İlham Əliyev andiçmə mərasimindəki genişməzmunlu nitqində də qeyd etdi: ***"Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ, demək olar ki, gündəlikdə durmur".*** Yəni Ermənistan sülhə yaxın gəlmək əvəzinə, Münhen Təhlükəsizlik Konfransının keçiriləcəyi ərəfədə şərti sərhəddə təxribat törədərək Azərbaycan əsgərini yaralayırsa, İrandan, Hindistandan, Fransadan silah-sursat alırsa, deməli, bu ölkə hələ də revanşizmdən bəslənir. Yox, əgər belə deyilsə, bəs onda rəsmi İrəvan sürətlə silahlanmanın səbəbini, yaxud bir vaxtlar Qarabağda oturub Azərbaycanla təhdid dili ilə danışan qondarma rejimin İrəvandakı tör-töküntülərinin indiki şəraitdə yenidən qınından boylanmasını nə ilə izah edəcək? Yəni sözümün canı budur ki, gərək işinlə əməlin düz gəlsin... Sülh gündəliyinə pərdələnib arxa planda naqis işlərlə məşğul olmaq Paşinyan iqtidarına heç bir fayda verməyəcək.

Dövlətimizin başçısı Münhen Təhlükəsizlik Konfransında ATƏT-in fəaliyyətdə olan sədri İan Borqla da görüşdü. Qalib Lider avropalı rəsmiyə açıq bəyan etdi ki, bu təşkilat uzun illərdir ki, fəaliyyətsizdir və öz üzərinə düşən missiyanı heç vaxt lazımi səviyyədə icra edə bilməyib. Bu fikir həm də onu diqtə edir ki, daha Cənubi Qafqazda işğalçıya vəkillik etmək dövrü bitib. 30 ilə yaxın regiona kabab yeyib əylənmək, vaxt keçirmək üçün gələn, missiyasını icra edə bilməyən yarıtmaz təşkilatın – ATƏT-in yenilənmək vaxtıdır. İki siyasi sima kimi qətiyyən onları müqayisə etmək fikrində deyiləm, amma cənab İlham Əliyev belə bir beynəlxalq qurumun rəhbərini Münhendə qarşısına alıb siyasi dərs keçdiyi vaxt hayastanın baş naziri konfransla bağlı erməni icmasının təmsilçilərinə hesabat verməklə məşğul idi. Heç bir siyasi çəkisi olmayan bir fiqurdan bundan artığını gözləmək erməni cəmiyyəti üçün sadəlövhlük olardı.

Son olaraq Azərbaycan üçün bu konfrans növbəti siyasi uğur kimi yaddaşlara yazıldı. Xalqımızın böyük inam və etimad bəslədiyi Prezidentin keçirdiyi görüşlərin, verdiyi açıq mesajların ümumi qənaəti belədir: ölkəmiz üçün yeni tarixi mərhələdə strateji məqsəd və növbəti vəzifələr dayanır.

Mübaliğəsiz-filansız deyirəm, heç bunun üçün siyasət adamı olmağa da ehtiyac yoxdur: qoca qitəni – nəhəng Avropanı bir vaxtlar torpaqlarının 20 faizini itirən, vətəndaş müharibəsindən, işğaldan əziyyət çəkən, bu gün isə dünyanın qalib kimi tanıdığı dövlətlə hesablaşmaq, onunla iqtisadi və siyasi əməkdaşlıq etmək mərhələsinə qədər yüksəltdiyiniz üçün var olun, möhtərəm Prezident. Məncə, hər bir azərbaycanlı üçün bundan böyük qürur ola bilməz.

**Muxtar RZAZADƏ**

*Keçdiyimiz həftə dünya mediasının diqqətində olan əsas məsələlərdən biri də London məhkəməsində "WikiLeaks" saytının yaradıcısı Culian Assanjla bağlı keçirilən dinləmələr idi. Bu dinləmələrdə, sözün əsl mənasında, Assanjın taleyi həll olunur. Onsuz da Culian Assanj 12 ildir, Böyük Britaniyada – əvvəllər Ekvador səfirliyinin binasında, daha sonra isə Belmarş maksimum təhlükəsizlik həbsxanasında məhkumluq həyatı yaşayır. Əgər hakimlər dünya şöhrətli jurnalistin əlavə apellyasiya şikayəti vermək hüququna malik olmadığını müəyyən edərsə, o, yaxın vaxtlarda ABŞ-a göndəriləcək. Orada isə jurnalisti 175 illik həbs həyatı gözləyir. Səbəb isə odur ki, öz portalında ABŞ dövlətinin rəsmi şəxslərinin yazışmalarını yaydı. Bu yazışmalarda amerikalıların başqa dövlətlərə qarşı hansı məkrli planlar qurduğu, müttəfiq və qeyri-müttəfiqləri ilə həyata keçirdiyi və keçirəcəkləri layihələri əks olunub. Təbii ki, bu məlumatların yayılmasından sonra bir çox ölkələr bu işdən öz nəsiblərini aldılar, amma dünyanın super gücü bunu özünə həm də ona görə bağışlaya bilmir ki, artıq reputasiyası zədələnib və bunun da nəticəsində ona olan münasibət dəyişib. ABŞ Assanjı "layiqli" şəkildə cəzalandırmağa çalışır ki, bu, başqalarına da dərs olsun.*

# Qərbdə söz azadlığının bədəli

## və ya dünyaya demokratiya dərsi keçənlərin Assanj utancı




Hələ 2010-cu ildə ABŞ-ın sifarişinə görə Assanjı bir qadınla münasibətinə görə ilk dəfə İsveç hökuməti həbs etmişdi. Amma jurnalist Stokholm qəzetlərindən birinə məktub yazaraq bu ittihamın açıq-aşkar "WikiLeaks"də yayımlanan məlumatlarla bağlı olduğunu bildirmişdi. Bundan sonra İsveç tərəfi ona qarşı bu ittihamları ləğv etmişdi. Həmin ilin sentyabr ayının 1-də isə İsveç səlahiyyətliləri ona qarşı bu işi yenidən ortaya atdılar. Hətta İsveç məhkəməsi "Wikileaks"in qurucusunun həbsi üçün order də verdi. Bir gün sonra Assanjın isveçli vəkili bu məhkəmə qərarından şikayət edərək onun buraxılmasına nail oldu və jurnalist Londona gələrək orada yerləşmişdi. 2012-ci ildə Assanjı dövlətin düşməni elan edən ABŞ jurnalisti orada da rahat buraxmadı və o, Ekvador səfirliyinə sığınaraq siyasi sığınacaq aldı. Sonra isə ABŞ və Britaniyanın Ekvadora siyasi təzyiqləri nəticəsində sığınacaqdan məhrum edilsə də, Assanj hələ də casusluq ittihamına görə Britaniya hüquq-mühafizə orqanlarının əlindədir. İşin motivinə gəldikdə isə bu ekstradisiyanın ABŞ-ı təmsil edən vəkillər qanunun tələbi, jurnalisti müdafiə edənlər isə siyasi yöndə olduğunu bildirirlər. Hadisələr hansı şəkildə cərəyan edirsə-etsin, məsələnin mahiyyəti dəyişmir: Qərbdə, ABŞ başda olmaqla media siyasi hakimiyyətlərin istədiyi qədər azaddır.

Hər birimizin xatirindədir, 44 günlük Vətən müharibəsi dövründə həmin Qərb mediası Azərbaycana axışaraq real hadisələri başdan ayağa təhrif yolu ilə dünya ictimaiyyətinə çatdırmaq üçün dəridən-qabıqdan çıxırdılar. Dövlət başçısının xarici media kanallarına verdiyi müsahibələrdə qərbli "azad söz carçıları"nın Prezidentə ünvanladıqları ittihamvari sualların da hələ unutmamışıq. Xüsusilə BBC müxbirinə cənab İlham Əliyevin Assanjın həbsdə saxlanılması ilə bağlı tutarlı sualları həmin vaxt dünya mediasının günlərlə müzakirə etdiyi əsas mövzulardan olmuşdu. Qərb mediasının iç üzünü bütün çılpaqlığı ilə ortaya qoyan bu müsahibəyə sonralar Prezidentin Çinin məşhur "China Media Group" media korporasiyasına verdiyi müsahibədə də toxunulmuşdu. Çinli jurnalist Culian Assanj tezisinin dünyada böyük rezonans doğurduğunu bildirmiş və Prezidentdən bu fikrə necə gəldiyini soruşmuşdu. Dövlət başçısı da bu məsələnin davamlı olaraq Qərbin müstəqil siyasət yürüdən Azərbaycanı bir çox sahələrdə ittiham etmək istəyindən doğduğunu bildirmiş, Assanjla bağlı məsələnin Qərbin tarixində qara səhifə olduğunu qeyd etmişdi.

Ümumi mənzərə ondan ibarətdir ki, bu gün özlərini demokratiyanın, söz azadlığının, insan hüquqlarının müdafiəçiləri hesab edən ölkələr üçün başəri dəyərlər nisbidir. Əgər Assanjın yaymladığı məlumatlarda hər hansı Şərq ölkələrinin adı keçərdisə, bu, ABŞ və Qərb üçün mətbuat və söz azadlığının kobud şəkildə pozulması, insan hüquqlarının tapdanması, jurnalistin peşə fəaliyyətinə müdaxilə və sair kimi təsdiqlənəcəkdi. Amma söhbət Qərbdən gedirsə, bu artıq dövlətin "təhlükəsizlik" məsələsidir.

İllərdir, Azərbaycanda qarışqanı filə döndərən "Amnesty International", "Human Rights Watch" kimi "müstəqil" təşkilatlar 30 il işğalda qalan ərazilərimizi, yer üzündən silinən mədəniyyət və memarlıq abidələrini, bir milyondan çox qaçqın və məcburi köçkünün hüquqlarını "görmədilər". Niyə? Çünki Qərb bu cür istəyirdi. Ancaq ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməyə başlayanda həmsinin səsi gur çıxmağa başladı. Elə birqütblü dünyanın təməl prinsipi də budur. O ki qaldı Assanja, jurnalistin dinləmələrdən sonra ABŞ-a verilib-verilməməsi (verilərsə, həyatına risk daha çoxdur) həlelik, bəlli olmasa da bu, mahiyyəti dəyişmir. Qərb Assanj utancını öz üzərində həmişə daşıyacaq.

**Səbuhi HƏSƏNOV**

# 40 qazi istirahətə göndərilib



28-29 fevral tarixlərdə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının maliyyə dəstəyi ilə 40 nəfər qazinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub. Mərkəzdə "Naxçıvan Qaziləri" İctimai Birliyinin üzvləri ilə çay süfrəsi arxasında görüş baş tutub.

İlk olaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Diqqətə çatdırılıb ki, 5-6 mart tarixlərdə digər qazilər də Ağbulaq İstirahət Mərkəzində olacaqlar. Şura tərəfindən, ümumilikdə, 101 nəfər qazinin bu imkandan istifadə etməyi nəzərdə tutulub.

Görüşdə qazilərin müraciətləri dinlənilib və həlli üçün müvafiq tapşırıqlar verilib.

Sonda Şahbuz rayon Kolanı kənd uşaq musiqi məktəbinin musiqi kollektivi konsert proqramı ilə çıxış edib.

Qeyd edək ki, 2 günlük tədbir çərçivəsində qazilər Ağbulaq İstirahət və Xizək Mərkəzində mövcud olan bütün imkanlardan yararlanıblar.

# Naxçıvan dünya mediasında

## Qardaş ölkənin mətbuatında Zəngəzur dəhlizi ilə bağlı xəbərlər dərc olunub














Qarabağ münaqişəsinin başa çatması ilə Cənubi Qafqazda sabitliyin qazanılması və kommunikasiyaların yenidən açılması məsələlərinin həlli dünya mətbuatının gündəmindəki yerini qoruyur. “Şərq qapısı” qəzeti xəbər verir ki, bu barədə Türkiyə və Rusiya mətbuatında maraqlı materiallar yayımlanıb.

Bu məzmunda qardaş Türkiyənin nüfuzlu *haber7.com* internet saytında yayımlanmış xəbərdə Zəngəzur dəhlizi üzərində mühüm dəmir yolu qovşağı olan Naxçıvanın Culfa stansiyasından bəhs olunur. Dəhlizin açılması ilə Culfanın öz əvvəlki srtateji önəminə qayıdacağı bildirilən yazıda hələ 100 il öncəsində Rusiya və İran arasındakı ticarət əlaqələrində bu stansiyanın əhəmiyyətindən danışılır. Lakin 1990-cı illərin əvvəllərində Ermənistanın Qarabağı işğal etməsi ilə Naxçıvanın blokadaya düşməsi nəticəsində Culfa stansiyasının yalnız daxili qatar səfərlərinə xidmət etdiyi qeyd olunur.

Xəbərdə, həmçinin bildirilir ki, Zəngəzur dəhlizinin açılması ilə Culfa stansiyasının da yerləşdiyi Naxçıvan Dəmir Yolundan keçməklə Avropa-Asiya marşrutu boyunca yük və sərnişin daşınması mümkün olacaq. Belə ki, artıq dəhlizin Azərbaycandan keçən hissəsində işlər yekunlaşmaq üzrədir. Xəbərlə ***https://www.haber7.com/foto-galeri/83182-tarihi-culfa-tren-istasyonu-eski-gunlerine-donuyor-zengezur-koridoru-ile-stratejik-onemine-kavusacak*** səhifəsində tanış olmaq mümkündür.

Türkiyənin aparıcı Anadolu Ajansı isə “Naxçıvanlılar Zəngəzur dəhlizinin açılması ilə həyatlarının dəyişəcəyinə inanır” başlıqlı yazıda 30 ildən artıq müddətdə davam edən blokadanın sona çatacağını burada yaşayan insanlardan alınmış geniş müsahibə və maraqlı fotoreportajlarında izləyicilərinə çatdırır. Xəbər portalının müxbiri Zəngəzurun qədim Azərbaycan torpaqları olduğunu dilə gətirən müsahiblərə istinad edərək bu dəhlizin tarixi Turan yolu olduğunu bildirir, tarixi ədalətsizlik nəticəsində Naxçıvanın Azərbaycanın əsas hissəsindən ayrı düşdüyünü yazır.




Xəbər və fotoreportajla ***https://www.aa.com.tr/tr/dunya/nahcivan-halki-zengezur-koridoruyla-hayatlarinin-degisecegine-inaniyor/3105815#*** linkində tanış olmaq mümkündür.

Türkdilli dövlətlərdən maraqlı televiziya proqramları yayımlayan TRT AVAZ kanalının veb-səhifəsində verilmiş “Zəngəzur dəhlizi: Türk dünyasını birləşdirən qapı” başlıqlı yazıda isə 2020-ci ilin 10 noyabrında qəbul olunmuş üçtərəfli bəyanatda Zəngəzur dəhlizinin açılması xatırladılır və bölgənin iqtisadi inkişafında onun əhəmiyyəti vurğulanır. Kanalın saytında dəhlizin açılması ilə onun Naxçıvandan keçən hissəsində dəmir yolunun da yenidən qurulacağı və Türkiyədən çəkiləcək dəmir yoluna inteqrasiya olunacağı bildirilir.




Xəbər və fotoreportajla ***https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/zengezur-koridoru-turk-dunyasini-bulusturan-kapi/659e5d36046d117ea1eebd0e*** linkində tanış olmaq mümkündür.

## Rusiyada Zəngəzur dəhlizi barədə elmi məqalə




Cənubi Qafqazda ölkəmizin şəriksiz lider mövqeyi və 44 günlük müharibədən sonra davamlı sülhün yaradılması perspektivləri baxımından yeni regional əməkdaşlıq imkanları Zəngəzur dəhlizi kimi qlobal layihəyə diqqətləri artırır. Dəhlizin gələcəyi haqqında proqnozlar verməyə çalışan belə strateji araşdırmalardan biri “Zəngəzur dəhlizi: iqtisadi potensial və siyasi çətinliklər” başlığı ilə “Russia in global affairs” jurnalında dərc olunub.

İşğalçı Ermənistanın məğlub olması ilə Cənubi Qafqazda yaranmış yeni geostrateji vəziyyət, habelə Rusiya-Ukrayna müharibəsi səbəbindən Avropa-Asiya dəhlizində Şimal marşrutunun dayanması ilə Zəngəzur koridorunun artan əhəmiyyətini vurğulayan müəllif bu dəhlizin adının tarixiliyinə də diqqəti çəkir. Azərbaycanın qələbəsi ilə başa çatan müharibədən sonra “Zəngəzur dəhlizi” ifadəsinin siyasi terminologiyadakı yerindən də bəhs olunan məqalədə onun bütün tərəflər üçün əhəmiyyəti geniş təhlil olunur.

Məqalədə Zəngəzur dəhlizinin gözlənilən iqtisadi faydaları, Türkiyə, Azərbaycan və Ermənistan üçün onun əhəmiyyətinə toxunan müəllif dəhlizin Azərbaycandan keçəcək hissəsində işlərin böyük bir hissəsinin tamamlandığını, Türkiyənin Naxçıvanadək ərazisində bu işlərə start verildiyinə diqqət çəkir. Layihənin Ermənistana və İrana qazandıracağı iqtisadi faydalar üzərində də təhlillər aparan məqalə müəllifi hər iki ölkənin bu yolla Qara dənizə çıxış imkanları qazanacağını göstərir.

Zəngəzur dəhlizinə Türkiyə ilə Türkdilli dövlətlərin iqtisadi inteqrasiyasında mühüm perspektivli bir layihə kimi yanaşılan məqalədə tərəflər arasında enerji, xammal və əmtəə mübadiləsi, həmçinin turizm əlaqələrinin perspektivləri təhlil olunur. Bununla yanaşı, dəhlizin Rusiya üçün əhəmiyyətini də geniş təhlil edən müəllif ölkəsinin hazırkı vəziyyətində onun alternativ marşrutlara olan ehtiyacını qiymətləndirir, Türkiyə və Yaxın Şərq regionu istiqamətində bu ölkənin nəqliyyat və logistika imkanlarına nəzər salır.

Məqalənin ikinci bölümündə Qarabağ münaqişəsinin bitməsi ilə yaranmış perspektivlərlə yanaşı, digər region ölkələrində potensial risklərin hələ də qaldığını qeyd edən müəllif bunların düzgün qiymətləndirilməsi ilə Zəngəzur dəhlizinin reallaşdırılması məsələlərini ümumiləşdirməyə çalışmışdır. Elmi məqalə həcminə, quruluşuna, istinadlarına və təhlil dərinliyinə görə kifayət qədər maraqlı olub Naxçıvanın geostrateji mövqeyinin də tanınması baxımından əhəmiyyətlidir.

Məqalənin məzmunu ilə ***https://eng.globalaffairs.ru/articles/zangezur-corridor/#*** linkində tanış olmaq olar.

## Amerikanın xəbər saytı Naxçıvandakı Duzdağdan yazır




Amerikanın *www.ktvz.com* saytında ölkəmizin ən böyük müalicəvi turizm obyektlərindən biri olan Duzdağ haqqında məqalə yer alıb. Məqalədə Naxçıvan duz mağaralarının tarixi, onların müalicəvi xassələri ilə məşhurlaşması haqqında məlumatlar əks olunub.

Məqalənin müəllifi Naxçıvan haqqında yazır: “Azərbaycanın paytaxtı Bakıdan 260 mil (təxminən, 418 kilometr) qərbdəki Naxçıvanda tarixi qalalar, türbələr və hətta mağaralar da daxil olmaqla çox sayda görməli yerlər vardır. Bunlardan biri də Duzdağ Fizioterapiya Mərkəzidir.

Məqalədə hər il orta hesabla 3500-4000 pasiyentin üz tutduğu bu duz mağarasının immunitet sistemini gücləndirdiyi, qan dövranını yaxşılaşdırdığı və stresi aradan qaldırdığı deyilir. Buraya gələn insanların birdəfəlik sağalacağına inandığı rahatladıcı sükut ilə əhatə olunmuş mağarada oturaraq bu sakit atmosferi hiss etmək asandır. Bütün bunlar, həmçinin mağaradakı mikroiqlim, buradakı müalicəvi mühit məqalədə geniş izah olunub.

Qeyd edək ki, məqalənin dərc olunduğu “ktvz” media qrupu Amerikanın NBC və The CW Plus şirkətlərinin filialı kimi 40 ildən çoxdur ki, 24 saat xəbər yayır.

Xəbərin məzmunu ilə ***https://ktvz.com/entertainment/cnn-style/2023/12/30/duzdag-the-health-spa-hidden-deep-in-a-salt-mine-on-the-edge-of-asia/*** linkində tanış olmaq olar.





# "Media Ordubadda" layihəsinə start verilib





Azərbaycanın tarixi və mədəni irsinin nadir nümunələrindən olan Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2024-cü il 21 fevral tarixdə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncamda da qeyd olunduğu kimi: *"Ordubad rayonu Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın incisi adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir... Rayonun ərazisindəki Xarabagilan şəhər yeri Orta əsrlər dövrünün şəhər həyatını, təsərrüfatını, sənətkarlığını, müdafiə sistemini, su təchizatını və memarlığını tədqiq etmək üçün unikal arxeoloji abidədir... Rayonun inzibati mərkəzi Ordubad şəhəri qədim tarixə malikdir. XVII əsrin əvvəllərində Ordubadda Cümə məscidi, mədrəsə, buxzana, qeysəriyyə, hamam və karvansaralar tikilmiş, Anbaras, Kürdətal, Üçtürləngi, Mingis və Sərşəhər məhəllələri, Ərəsət meydanı ansamblı, üç meydan ətrafında örtülü bazar kompleksi salınmışdır. Ordubadın əsas su təchizatı olan kəhriz sistemi də bu dövrdə yaradılmışdır. Şəhərin küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydandan şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin əsasını təşkil edir. XVII-XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri öz tarixi və mədəni əhəmiyyətini bu gün də saxlayır".*



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Ordubad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə start götürən "Media Ordubadda" layihəsi şəhərdə olan abidələri, şəhərin tarixini, mədəniyyətini, adət-ənənələrini təbliğ etmək, sosial şəbəkələrdə daha geniş arenaya çatdırmaq məqsədilə reallaşdırılır. Layihəyə uyğun olaraq ilboyu Ordubad şəhərinə jurnalistlərin, blogerlərin səfəri nəzərdə tutulub. Qeyd edək ki, ilk səfərdə Azərbaycan televiziyası, Naxçıvan televiziyası, "Şərq qapısı" qəzeti, "Baku tv", "Apa", "Report", "Nuhçıxan", "Naxçıvan xəbərləri" media qurumlarının əməkdaşları və sosial media fəalları iştirak ediblər. Layihəyə püşkatma ilə start verilib. Püşkatmada Ordubadın meydan və küçələri, tarixi-memarlıq abidələri, adət-ənənələri, mətbəxi, insanları və başqa mövzular yer alıb. Həmin mövzular üzrə hazırlanan reportajlar, mətnlər və videomateriallar mediada və sosial şəbəkələrdə yayımlanacaq. Paylaşımlarda #mediaordubadda haştağından da istifadə olunur.





# Qədim tarixi, zəngin mədəni irsi, gözəl təbiəti ilə seçilən ORDUBAD



✍ Güntac ŞAHMƏMMƏDLİ

Naxçıvan şəhərindən mütəmadi işləyən avtobuslar vasitəsilə adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinən Ordubad şəhərinə səyahət etmək mümkündür. Ordubad şəhərini şimal və şimal-şərq tərəfdən əhatə edən sərt sıldırımlı dağların mənzərəsi, Bəlkə dağının və Bərəkə qayasının görüntüsü şəhərə xüsusi yaraşıq qatır. Bu qeyri-adi şəhərin mərkəzinə doğru irəlilədikcə burada müasirliyin və tarixi gözəlliyin sehrinə qapılır insan. Tarixi binalar, muzeylər, nəhəng çinarlar, qədim meydanlar şəhərin simasını gözəlləşdirir. Sərşəhər (Şəşəri), Ambaras, Mingis, Kürdətal (mərkəz), Üçtürləngə kimi qədim məhəllələr, XVII-XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri Ordubadın qədim tarixi və mədəniyyətindən xəbər verir. Hər məhəllənin meydanı, məscidi, çeşməsi vardır. Memarlıq üslubu, xüsusi cizgiləri ilə seçilən və əhalinin adət-ənənələrini özündə əks etdirən, özünəməxsus yaşayış evləri, materialı cəviz ağacından olan taqqılbablı qapılar, qədim şəbəkə sənətinin izlərini özündə daşıyan abidələr şəhəri daha da cazibədar edir.

Mənbəyi qar sularından mayalanan buz kimi sərin çeşmələri, kəhrizləri, təmiz dağ havası, meyvə bağları, istedadlı ziyalıları, qonaqpərvər, safürəkli, təmiz məhəbbətli əhalisi olan Ordubad tarixən bura gəlib-gedən səyyahları, qonaqları da valeh edib. XX əsrin əvvəllərində buranı ziyarət etmiş səyyah Nefodov yazmışdı: *"Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir".*

Ölkəmizdən kənarda da adla tanınan Ordubad limonu, sucuğu, qayğanağı, quru meyvələri bu bölgəni əvəzedilməz edir. Şəhərin mərkəzi meydanında, Cümə məscidinin sağında yerləşən çayxana nəinki Ordubad sakinlərinin, eləcə də bura gələn qonaqların əsl istirahət məkanıdır. Burada yaşı əsrlərə bərabər olan çinarların kölgəsi bu istirahəti daha da mənalı edir. İqliminə görə ilin bütün fəsillərində gözəl olan Ordubadın cəlbedici xüsusiyyətlərindən biri də vaxtilə ipəkçilik və ticarət mərkəzi kimi məşhur olmasıdır. Tarixi mənbələrə əsasən Naxçıvan və Kirandan sonra üçüncü şəhər sayılan Ordubad XIII əsrdən başlayaraq Azərbaycanın 260 tümən illik hasilatının toplandığı 21 iri şəhəri sırasına daxil olub. Ordubad həm də Şərqin qədim mədəniyyət mərkəzlərindən biri kimi tanınıb. İndi də öz tarixini və dünya mədəniyyətinə bəxş etdiyi töhfələri ləyaqətlə qoruyub nəsillərdən-nəsillərə ötürür. Rayonun ərazisindəki Xarabagilan şəhər yeri, dəniz səviyyəsindən 3900 metrdən də artıq hündürlükdə yerləşən Qapıcıq dağının ətəyində, fantastik görünüşü ilə insanı heyrətə gətirən Gəmiqaya abidəsi əcdadlarımızın həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini özündə daşıyır. Qiymətli su mənbəyi olan kəhrizlər buranın qədim tarixindən soraq verir. Başqa bölgələrdən fərqli olaraq yeraltı tunellər şəklində tikilən kəhrizlərin bir çoxu qırx pillədir.

XIX əsrə aid Ordubad hamamı, XVII əsrin orijinal tikililərindən sayılan Qeysəriyyə (Zorxana), XVIII əsr Pir Eyvaz türbəsi ulu keçmişimizin tarixi yadigarlarındandır. Ordubadda Malik İbrahim türbəsi, Əfqan qalası, Babək qalası, Şah dağı, Cahartac abidələri, Kürdətal məhəllə qəbiristanlığında qoç heykəlli çoxlu qəbirlərin mövcudluğu da qədim tarixi soraqlayır. Şəhərin mərkəzi meydanında, Bərəkə dağının sinəsində ucalan Cümə məscidi qədim memarlıq abidəsi kimi indi də şəhərin qonaqlarını heyrətə gətirir. 1275-ci ildə tikilən məscidin giriş qapısına vurulmuş lövhədə 1604-cü ildə Şah Abbasın verdiyi xüsusi fərmanın mətni yazılıb.

Azərbaycan maarifçisi, böyük mütəfəkkir Məhəmməd Tağı Sidqinin, Azərbaycanın görkəmli yazıçısı Məmməd Səid Ordubadinin, o cümlədən görkəmli kimyaçı Yusif Məmmədəliyevin vətəni olan Ordubad şəhərində Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin, maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyləri, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi buraya gələnlərin ən çox ziyarət etdikləri yerlər sırasındadır. Təkcə Ordubadda deyil, onun Aza, Tivi, Əylis, Nüsnüs və başqa kəndlərində olan abidə və məscidlər təkcə dini ziyarətgah baxımından deyil, tikinti-memarlıq xüsusiyyətlərinə görə də seçilir. Həmçinin füsunkar təbiət möcüzəsi, ilin dörd fəslinin birləşdiyi Göygöl, Pəzməri və digər kəndlərində olan buz kimi şəlalələr təbiət qoynunda dincəlmək istəyənlər üçün əsas məkanlardır. Ordubad təkcə tarixi abidələri ilə deyil, zəngin mətbəx nümunələri ilə də insanları cəlb edir. Tanınmış səyyah Hacı Zeynalabdin Şirvani "Bustanüs-səyahə" kitabında yazırdı: *"Ordubad ürəkaçan gözəl bir qəsəbədir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. Adamları surətcə gözəldir".*

Ölkə başçısı cənab İlham Əliyevin 2024-cü il 21 fevral tarixli Sərəncamı ilə Azərbaycanın tarixi və mədəni irsinin nadir nümunələrindən olan Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Sərəncamı bu qədim, tarixi şəhərə, onun vətənpərvər, qonaqpərvər insanlarına verilən yüksək qiymətin bariz ifadəsidir. Bu gün də özünün yüksək intellektli ziyalıları, zəhmətsevər insanları, dövlətçiliyə sədaqətli əhalisi ilə tanınan Ordubad tarix-mədəniyyət qoruğu kimi ölkəmizin tarixinin, mədəniyyətinin inkişafına bundan sonra da öz töhfəsini verəcək.





# 100 ilin qəhrəmanları

*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Yengicə kəndindən olan şəhidimiz Ruzi İbrahimovun anası Səmayə İbrahimovanın, Sədərək rayonunun Heydərabad qəsəbəsindən olan şəhidimiz Tağı Abdullazadənin anası Şahnaz Abdullayevanın və Culfa rayonunun Camaldın kəndindən olan şəhidimiz Şamil Babayevin anası Atikə Babayevanın övladları haqqında xatirələri yer alıb.*

## Ruzi Əliağa oğlu İbrahimov

*(23.02.1983-07.11.2020)*

### Öz canını anasına, xalqına, millətinə qurban verib





Ruzi sakit, qapalı, həm də məsuliyyətli bir övlad idi. Heç kimlə işi olmazdı. Balaca vaxtı atasını itirdi. Bu itki mənə də, övladlarıma da çox ağır oldu. Ən çox Ruziyə təsir etmişdi bu itki, heç cür özünə gələ bilmirdi.

Mənim üçün ən yaddaqalan, heç vaxt yadımdan çıxmayacaq xatirələrindən birini danışım. Atasını itirəndən illər sonra idi. Bir gün işdən gəldim ki, həyətdə velosiped var. Fikirləşdim ki, bu haradandır, axı bizim onu alacaq gücümüz yoxdur. O zaman bizim dörd qoyunumuz var idi. Demə, Ruzi qoyunun birini aparıb velosipedlə dəyişib. Dedim ki, Ruzi, bu nədir? Dedi ki, ana bir qoyun verdim, kənddən aldım. Mən də hirsləndim. Dedim ki, oğul, biz günlük çörəyimizi zorla qazanırıq. Sən qoyunu verib velosiped alırsan. Sonra velosipedi sahibinə verib qoyunu gətirdim. Kasıbçılıq idi, neyləyərdim? Amma özümü bağışlaya bilmirəm. Çünki Ruzinin arzusunu gözündə qoydum. Bu hadisədən sonra Ruzi daha da məsuliyyətli oldu. Məndən də velosipedə görə incimədi.



Hər gün işə gedəndə məni öpməmiş evdən çıxmazdı. Elə deyirdi ki, ana, çox əziyyət çəkmisən. Səni özüm saxlayacağam. Sən bizim yolumuzda saçlarını ağartmısan.

Ruzi şəhid olanda mən Bakıda idim. Bilmirdim ki, Ruzi müharibəyə gedib. Tez-tez mənə zəng edirdi. Deyirdi ki, xəstəlik var, qonşuya getmə, bayıra çıxma. Ruzi oktyabrın 11-i gedib müharibəyə. Oktyabrın 28-i mənə zəng vurdu. Dedi, ana, necəsən, neyləyirsən? Dedim, ay Ruzi, qalmışam Bakıda. Evə gedə bilmirəm. Dedi ki, ana təyyarə yoxdu, bizi bu gün, bəlkə, Ordubada apardılar. Birdən zəng vurmasam, nigaran qalma ha, haqqını da halal elə. Dedim, Ruzi, o nə sözdü? Dedi, anam, olar da. Ruzi noyabrın 11-i şəhid olub. Bakıdan qayıdanda gördüm evə o qədər adam gəlir-gedir ki. Fikirləşdim ki, yəqin, məni görməyə gəlirlər. Ağlıma da gəlmir ki, balam şəhid olub. Öz canını anasına, xalqına, millətinə qurban verib!

## Tağı İlham oğlu Abdullazadə

*(04.05.1992-28.10.2020)*

### Vətənini, torpağını ailəsindən, anasından üstün bilən şəhid



Tağı çox sakit uşaq idi. O qədər sakit idi ki, atası deyirdi, a bala, get quş vur, uşaqlarla oyna. Atası belə sakitliyinə görə onu idmana yönəltdi. Əvvəl voleybola getdi. Voleybol yarışlarında diplomlar almışdı. Culfa, Ordubad istiqamətində xidmət etdi. Gözəl xasiyyətnamə ilə xidməti başa vurdu. Uzun müddət məktəbdə hərbi rəhbər işlədi. Dərs dediyi şagirdlər artıq böyüyüblər. Hər biri bir ailənin başçısıdır. Onlardan biri həkimdir.





Tez-tez bizim ziyarətimizə gəlir. Hamısı sağ olsun.

Uşaqlarımın içində ən seçiləni olub Tağı. Çox mehriban, çox tərbiyəli idi. Onun bu hərəkətləri təkcə bizə qarşı deyildi. Tağı həm də hər kəsə mehriban, qayğıkeş idi. Yuxularımda tez-tez görürəm igid balamı.

O günlərdə qar yağdı. Fikirləşdim ki, ev damacaq. Ürəyimdə dedim ki, Tağı sağ olsaydı, gələrdi. Gəlib qarı təmizləyərdi. Bu fikirlə yatdım. Yuxuda gördüm ki, Tağı qapının ağzında dayanıb. Boylanıb mənə baxır. Əli ilə “sus” işarəsi verdi. Damın üstünə çıxıb qarı təmizlədi.

Bir xasiyyətini də deyim. O, kiminsə sözünü danışmağı xoşlamazdı. Nə vaxt nəyəsə darıxıram, sıxılıram, o anda yuxuma gəlir. Ondan sonra qəlbim rahatlıq tapır.



Diqqətinə də söz ola bilməzdi. Özündən böyük heç kəsin yanında uzanmazdı. Mənim belə. Ömründə heç vaxt üzümə qayıtmayıb. Heç vaxt sözümü çevirməyib. Deyə bilmərəm ki, bir dəfə də olsun, ondan incimişəm. Qızlarım həmişə deyirdilər ki, ana, sən niyə Tağıya hirslənmirsən? Deyirdim, Tağı elə hərəkət edir ki, ona hirslənə bilmərəm. Tağı ömürboyu heç kimə acı söz deməyib. Heç kimin qəlbinə dəyməyib. Tağı bütün şəhidlərimiz kimi fərqli oğul olub. Elə bir oğul olub ki, Vətənini, torpağını ailəsindən, anasından üstün bilib. Nə edək, qismət belə imiş. Yenə də Vətən sağ olsun!

## Şamil Baloğlan oğlu Babayev

*(26.01.1988-07.11.2020)*

### “Şəhid olsam, həmişə üstümdə daşıdığım bayrağı məzarımda başımın altına qoyarsınız”





Mənim balamın xatirələri bitib-tükənməz. Çox sakit uşaq idi. Yaxşı oxuyurdu. Nə hərbi liseydə, nə də ki akademiyada təhsil alarkən razı olmazdı ki, mən ora gedim. Deyirdi, atam gəlsin.

Çox həvəsli idi hərbiyə. Özü seçmişdi hərbçi olmağı. Arzusunun arxasınca getdi. Hərbi liseyi bitirdi. İki il Bakıda, iki il də Türkiyədə təhsil aldı. Heç bir sirrini bizə deməzdi. Hətta müharibəyə getməyindən də xəbərimiz olmadı.

26 sentyabrda oğlunun ad günü idi. Gördüm narahatdı. Dedim, oğul, yorulmusan, get yat, dincəl. Dedi, yox ana, Yusifi (oğlunu) aparacam gəzməyə. 27 sentyabrda, səhər saatlarında evdən getdi.

Son vaxtlara qədər danışa bilmirdik. Qardaşım dedi ki, bacı, Şamil Bərdədədir. Demə, Bərdə nədir, Şamil ön xətdə döyüşür. Bir gün televizora baxanda bir hərbçini ona oxşatdım. Gəlinə dedim ki, Şamili gördüm, Bərdədədir. Gəlin dedi ki, ana, nə Bərdə. Şamil ön xətdədir.

Sonuncu dəfə zəng vurdu ki, ana, atamı yuxuda görmüşəm. Atam necədir? Dedim, oğul, atan lap yaxşıdır. Sən necəsən? Bildirdi ki, çox yaxşıyam. Hətta zarafata salıb dedi ki, iki kiloqram da kökəlmişəm. Məni bax belə dilə tuturdu. Telefonla danışanda qardaşına deyirmiş ki, anamı alışdır. Alışdır ki, mənə nəsə olsa, çox əziyyət çəkməsin. Kəndimizə gələn şəhidin yasından evə gəlirdim. Baxdım ki, mənə birtəhər baxırlar. Elə bil nə isə hiss etdim. Evdə uşaqlara dedim ki, Şamilə nə isə olub. Dedilər ki, nə ola bilər? Amma ana ürəyi hər şeyi hiss edir. Bildim ki, Şamil şəhid olub.



Üzərində hər zaman bayraq gəzdirərdi. Döyüş yoldaşları danışırdılar ki, şəhid olmamışdan əvvəl vəsiyyət etdi. Dedi ki, şəhid olsam, həmişə üstümdə daşıdığım bayrağı məzarımda başımın altına qoyarsınız. Qəbri nurla dolsun! Elə bütün şəhidlərimizin!



# Yaşıl dünyamızı, gələcəyimizi qoruyaq!

*Yaşıl dünya bəşəriyyət və təbiət arasında harmoniyanın əldə edildiyi davamlı təcrübələrlə inkişaf edən planetimizin vizyonunu təmsil edir. Bu, “yaşıl enerji”nin, mühafizənin və ekoloji cəhətdən təmiz texnologiyaların normaya çevrildiyi və hamı üçün daha sağlam ətraf mühiti təmin edən gələcəkdir. İlk dəfə ədəbiyyatşünas Northrop Frye ədəbiyyatda təkrarlanan xüsusi mühiti təsvir etmək üçün “Yaşıl dünya” terminini işlətdi. Məhz ədəbiyyatda da “Yaşıl dünya” nizamlı dünyaya tarazlığı bərpa etmək üçün vacib amil kimi göstərilir.*

Qloballaşan dünyanın qloballaşan problemləri artdıqca yaşıl dünya naminə həmrəylik, birlik aktual məsələyə çevrilib. İqlim dəyişiklikləri su, torpaq və atmosfer havasının çirklənməsi, qlobal istiləşmə, ozon qatının zədələnməsi, su ehtiyatlarının tükənməsi, təbii fəlakətlər ümumbəşəri probləmə çevrilib. Ölkə başçısı cənab İlham Əliyevin ötən il dekabrın 25-də iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında imzaladığı Sərəncam dünyanın qlobal ekoloji problemlər və iqlim dəyişikliyi ilə mübarizə apardığı bir vaxtda səylərin birləşdirilməsinin, beynəlxalq əməkdaşlıq və həmrəyliyin, bu mənada, böyük roluna diqqəti çəkdi.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə”, “Təmiz ətraf mühit və “Yaşıl artım ölkəsi” başlığı ilə ölkəmiz üçün gələcəyə dair mühüm prioritetlər müəyyənləşdirilib. Burada qeyd edilir ki, qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu prioritet daxilində məqsədlərə nail olunması üçün yüksəkkeyfiyyətli ekoloji mühit və “yaşıl enerji” məkanı formalaşdırılmalı, ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqi genişləndirilməlidir....

Müvafiq Sərəncamda da qeyd edilir ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji zonası” elan olunmuşdur. Dövlət başçısının 2023-cü il 5 iyun tarixli Sərəncamına əsasən qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 4.1.6. maddəsində elektrik enerjisi istehsalının və ixracının artırılması, Türkiyə ilə quru sərhədin mövcudluğu, həmçinin Azərbaycan-Türkiyə-Avropa elektrik dəhlizi layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasının ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi imkanı, Türkiyəyə elektrik verilişi xəttinin çəkilməsi, elektrik enerjisi ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi əsas prioritetlər kimi qeyd edilir. Bütün bunların həlli gələcəkdə Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq.

Prezident cənab İlham Əliyev ötən il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında çıxışı zamanı bildirib ki, Naxçıvan Muxtar Respublikasında böyük bərpa olunan enerji potensialı mövcuddur və burada 500 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisinin mümkünlüyü nəzərdən keçirilir. Bu məqsədlə ötən il aprelin 5-də Azərbaycan Respublikasının energetika nazirinin müavini Elnur Soltanovun rəhbərlik etdiyi işçi qrupu Naxçıvana səfər zamanı Naxçıvan Muxtar Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi ilə görüşmüş, “yaşıl enerji” konsepsiyasının muxtar respublikada tətbiq imkanları müzakirə olunmuş, bu sahədə işlərin sürətləndirilməsinin vacibliyi diqqətə çatdırılmışdır. İyunun 3-də “Heydər Əliyev İli” çərçivəsində Naxçıvan şəhərində Bakı Enerji Forumunun “Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı” mövzusunda xüsusi sessiyasının təşkili də bu baxımdan böyük əhəmiyyət kəsb etdi. Burada Naxçıvanın zəngin bərpa olunan enerji potensialının ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsinə və karbon emissiyasının azaldılmasına mühüm töhfə verəcəyi vurğulandı, muxtar respublikada günəş və külək enerjisi stansiyalarının inşası, alternativ enerji istehsalı və ixracı, sərmayə yatırımı və digər məsələlər müzakirə olundu. Həmçinin ötən il Azərbaycan Respublikasının Energetika Nazirliyi və “TotalEnergies” şirkəti arasında Anlaşma Memorandumunun, Azərbaycan Respublikasının Energetika Nazirliyi və “Nobel Energy Management” MMC arasında “Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması bu istiqamətdə atılan mühüm addımlardır.

Ötən il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Naxçıvanda İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması da gələcəkdə Naxçıvanın enerji təhlükəsizliyinin təminində mühüm rol oynayacaq. Həmin gün dövlət başçısı mətbuata çıxışı zamanı dedi: ***“Naxçıvanın qazı, nefti olmasa da, Günəşi var və Naxçıvanda Günəş Elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan “yaşıl enerji zonası”na çevriləbilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində “yaşıl enerji” ixracı da mümkün olacaqdır”.*** Bu, bir daha onu göstərir ki, gələcəkdə Naxçıvan elektrik enerjisi ilə özünü təmin etməklə yanaşı, xaricə də bu enerjini ixrac edəcək.

Ötən il sentyabrın 29-da Naxçıvanda Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın iştirakı ilə Azərbaycan-Türkiyə 3-cü Enerji Forumu və “Naxçıvan – Yaşıl Enerji Zonası” beynəlxalq konfransın keçirilməsi bu sahədə vacib qərarların müəyyənləşdirilməsində mühüm addım idi. Azərbaycan-Türkiyə III Enerji Forumunun açılış sessiyasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxışı zamanı xüsusi olaraq vurğuladı ki, yaxın perspektivdə qarşıya qoyulan əsas hədəf Naxçıvanda alternativ və bərpa olunan enerji potensialından maksimum istifadə olunması, elektrik enerjisinin Türkiyəyə ixrac edilməsi və Avropaya ötürülməsindən ibarətdir. Həmçinin səlahiyyətli nümayəndə jurnalistlərə müsahibəsində də qeyd edib ki, Naxçıvanda “yaşıl enerji”yə keçidlə bağlı layihələr artıq işlənilib. Aparıcı şirkətlərlə ilkin memorandumlar bağlanılıb. Hazırda layihələrin icrası ilə bağlı işçi layihələr hazırlanır. 2024-cü ilin ikinci yarısında bu layihələrin icrasının şahidi olacağıq... Bütün bunlar göstərir ki, müvafiq Sərəncam Naxçıvan üçün xüsusi əhəmiyyət kəsb edir və “yaşıl enerji zonası” elan olunan diyarımız bu sahədəki uğurları ilə “Yaşıl dünya naminə həmrəylik ili”ndə öz töhfələrini verəcək.

Qeyd edək ki, bu il ölkəmiz dünya ölkələrinin yekdil qərarı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Bu, iqlim dəyişmələrinin qarşısının alınması sahəsində ölkəmizin həyata keçirdiyi fəaliyyətə beynəlxalq ictimaiyyət tərəfindən verilən ən yüksək qiymətdir. “Yaşıl dünya naminə həmrəylik ili”ndə təşkil ediləcək bu nüfuzlu sessiyanın ölkəmiz və bəşəriyyət üçün uğurlu nəticələrlə yekunlaşacağına əminik.

**Güntac ŞAHMƏMMƏDLİ**

## İnvestisiyaların təşviqi yeni sənaye sahələrinin yaradılmasına imkan verəcək

Sənaye müasir iqtisadiyyatın lokomotivini təşkil edir. İstehsala əsaslanan bu sahənin inkişafına nail olmadan iqtisadiyyatda hər hansı uğurdan bəhs etmək mümkün deyil. Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas hədəflərindən biri sənaye məhsulları istehsalı ilə davamlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Buna görə də mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da yaxın 4 il ərzində yerli xammal potensialından layiqincə istifadənin gerçəkləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Regional inkişafa göstərilən bu diqqət muxtar respublikada sənayenin inkişafına əlverişli şərait yaradıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Təsadüfi deyil ki, ötən il bölgədə 593,9 milyon manatlıq sənaye məhsulu, 358,4 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Ümumi Daxili Məhsul istehsalı isə 1 milyard 552 milyon manat təşkil edib.

Məlum olduğu kimi, sənaye məhəlləri bu gün dünya praktikasında uğurla tətbiq olunan layihələrdəndir. Hər şeydən əvvəl, belə məhəllələrin yaradıldığı ərazilər mövcud olduğu regionlara xas müxtəlif növ məhsulların istehsalını həyata keçirmək üçün zəruri olan infrastruktur şəraiti ilə təmin edilir. Nəticədə, məhəllləvi olaraq çəkilən infrastruktur xərcləri digər kiçik və orta sahibkarlar tərəfindən sərf olunacaq xərclərdən daha aşağı maliyyə vəsaitinə başa gəlir. Eyni zamanda buradа ümumi fəaliyyət kompleks xarakter daşıdığından, istifadə olunacaq su, qaz, enerji, nəqliyyat və digər xidmətlərdən istifadə ekoloji tarazlığın qorunmasına da öz töhfəsini verir. Son illər muxtar respublikada həyata keçirilən uğurlu sənayeləşmə prosesinin ən gözəl nümunəsi Şərur Sənaye Məhəlləsinin yaradılmasıdır. Ötən müddətdə Şərur Sənaye Məhəlləsinin ərazisində 24 istehsal sexi yaradılıb. Artıq burada ayaqqabı, tikiş malları, unlu qənnadı məmulatları, qapılar, mebel, kağız kisə və karton tara istehsalı sahələri üzrə sahibkarlıq subyektləri fəaliyyətə başlayıb. Digər istehsal sahələrinin yaradılması istiqamətində isə işlər davam etdirilir.

Muxtar respublikada sənayenin inkişafı bu sahəyə göstərilən dövlət dəstəyində də özünü hiss etdirir. Məsələn, 2023-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 40 investisiya layihəsinə 6,2 milyon manat güzəştli kredit verilib ki, bunun da böyük hissəsi – 84,8 faizi sənaye, 11,7 faizi kənd təsərrüfatının, 3,5 faizi isə xidmət sektorunun payına düşüb.

Bu gün muxtar respublikada əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin artırılması istiqamətində mühüm işlər görülür. Yanvar ayında muxtar respublikada xarici investorlarla keçirilən görüşdə işgüzar müzakirələrin aparılması da tezliklə bölgədə “yaşıl enerji”, mədənçilik kimi sənaye istehsalı sahələrinin fəaliyyətə başlamasından xəbər verir. Ümumilikdə isə Naxçıvanın tezliklə azad iqtisadi zonaya çevrilməsi burada fəaliyyət göstərəcək şirkətlər üçün vergi və gömrük güzəştləri, daşıma və digər sahələrdə müvafiq stimullaşdırma tədbirlərini nəzərdə tutur ki, bu da digər sahələrlə yanaşı, sənayenin də inkişafına öz müsbət təsirini göstərəcək.

**Səbuhi HƏSƏNOV**

# Qartallar elləri uca göstərər Elə tarixi kəndimiz Kotam kimi





Nazim kişi deyir ki, ata-babaları bu yolları atla, ulaqla gedib-gəlirmişlər. İnsanlar hər zaman adət-ənənələrinə sadiq qalıb, yolların daşlı-qayalı olması belə onları el-obalarından uzaqlaşdırmayıb. Ta ki 1959-cu ilədək... Bu tarixdən etibarən Kotam kəndi Araz çayının sahilinə köçürülür. Səbəbi isə...

Tarixi mənbələrə əsasən əvvəllər adı Ketam olan Ordubadın bu kəndi  Araz və Ketam çayının sahilində, dağətəyi ərazidə yerləşdiyinə görə el arasında “iki dağ arası” deyirlər. Naxçıvan şəhərindən Yeni Kotamadək yol rahat olsa da, oradan Köhnə Kotama uzanan 4 kilometrlik məsafə daşlı-kəsəkli, enişli-yoxuşludur. Bu tarixi kənd Kiçik Qafqaz dağlarının ətəyində yerləşdiyindən muxtar respublikanın ən ucqar yaşayış məskənlərindən biri olub. 100 illərin kəndi də demək olar bu yurd yerinə.

Enişli-yoxuşlu yollardan sonra kənddə ilk görünən uca cəviz, çay kənarında öz qaməti ilə seçilən çinar və bura gələnləri ilk qarşılayan armud ağaclarıdır. Bu ağacların tarixi də bir başqadır. Şəxsi avtomobili ilə bizi Köhnə Kotama aparan Nazim Həsənov deyir ki, o, gözünü açandan, bu kəndə gəlib-gedəndən gördüyü  məhz bu ağaclar olub. Hətta cəviz ağacını onun babası əkib və hər il bura gələrək məhsulunu özü toplayır. Çinarın yaşı isə bir əsrdən çoxdur. “Bura yol olmayıb, yolu sonradan salıblar”, – deyir Nazim kişi. Bu yol həm də sakinlərin tarixlərini unutmamağa imkan yaradıb.

Kənd iki dağ arasında, bol sulu çayın sahilində yerləşib. Yaxınlaşdıqca bizi uçuq-sökük, divarlarında bir tarixin yatdığı, möhrələrlə hörülmüş evlər qarşılayır. Evlər, demək olar ki, tam olaraq dağılıb. Bu kəndin köçürülmə səbəbi də tarixlə bağlıdır. Belə ki, 1941-ci ildən etibarən Ordubad rayonunda, Araz çayının sahilində muxtar respublikaya gələn qatarın ilk dayanacağı – Salamməlik stansiyası fəaliyyətə başlayır. Stansiyada çalışanların bəziləri isə məhz Köhnə Kotam sakinləri olur. Onların sayı gündən-günə çoxaldıqca, həmçinin kəndə gediş-gəliş çətin olduğundan kəndin Araz çayının sahilinə köçürülməsi qərara alınır. Bu qərardan sonra yeni kənd salınır və insanlar kəndi tərk edirlər. 1959-cu ildə, demək olar ki, kənd tam olaraq boşaldılır. Lakin iki dağ arasında yeşləşdiyindən bu kənddə mütəmadi olaraq qeydə alınan sel suları boş qalan evləri dağıdır. Nazim kişi deyir ki, buna baxmayaraq, yerli sakinlər bu gün də kəndə gələrək dağın döşündə salınan qəbiristanlığı ziyarət edirlər: “Ora bizim tariximizdir, bu kəndin nə qədər qədim olduğunun göstəricisidir. Hətta burada bizim







pay torpaqlarımız var və mənim özüm hələ də burada əkinlə məşğul oluram”.

Boş olan kənddə diqqəti ən çox cəlb edən məqam isə burada mədrəsə qalıqlarının olmasıdır. Bu kənddə doğulub-böyüyən sakinlər deyir ki, Kotam kəndi bu ərazidə öz bilikli adamları, din xadimləri ilə tanınıb. Hətta xəlifənin dövründə bir çox ölkələrdən – İraq, Liviyadan gəlib burada bəzi müzakirələr də aparılıb. Kəndin keçmişi haqda danışan 85 yaşlı Əhməd Hüseynov deyir: “Oradan cavan vaxtlarımda – 22 yaşım olarkən köçmüşəm. Yol olmayıb və ora gediş-gəliş çətin idi. Kəndimiz iki dağ arasında yerləşirdi, qışı çox sərt, yayı isə bir qədər sərin keçirdi. 1959-cu ildə tam olaraq oradan köçdük və Yeni Kotamda yaşamağa başladıq. Kəndimiz hər zaman bilikli adamları ilə seçilib, burada çoxlu din xadimləri olub. Bizim atalarımız da bizə deyib və özümüz də görmüşük ki, kəndin bilikli adamları hər zaman səfərlərə gedərdilər və ya hər hansı müzakirələr üçün bura başqa ölkələrdən insanlar gələrdi”.

Bir zamanlar elm, irfan qapısı olan bu mədrəsə indi dağılmış vəziyyətdədir. Nazim Həsənov deyir ki, mədrəsədə o zaman sakinlərə elm öyrədilirmiş. Kəndin dağılmasına, selin gəlməsinə baxmayaraq, yerli sakinlər onun bir hissəsini qoruya biliblər. Mədrəsə həm də kəndin mərkəzində, meydana yaxın ərazidə olub. Yerli sakinlər deyirlər ki, mədrəsənin tikilişi XIX əsrin sonlarına, XX əsrin əvvəllərinə təsadüf edir. Məhz buna görə bacardıqları qədər bu tarixi abidəni qorumağa çalışırlar.

Mədrəsəyə bitişik məscid isə tam olaraq Ordubad memarlıq üslubunda inşa edilib. Burada daha çox pəncərələrin quruluşu diqqəti cəlb edir. Belə ki, şəbəkə üsulu ilə hazırlanan pəncərələrin özünəməxsus görünüşü məscidə başqa gözəllik bəxş edib. Məscidin ölçüləri və onu içəridən yarıya bölən hissəni isə xüsusi vurğulamaq lazımdır. Belə ki, hazırda xalça asılan və iki bölünən bu yerlərdə kişilər və qadınlar əyləşib, ibadət ediblər. Tikilinin digər hissəsində kiçikölçülü pəncərə buranı aydınlatmaqdan ötrü qoyulub. Belə ki, günbatan hissədə qoyulan bu pəncərə hər zaman məscidin içərisini işıqlı edib. Düzdür, tarixi məscidin dağılmasının qarşısını almaq üçün yerli sakinlər tərəfindən bir qədər bərpa işləri aparılıb. Lakin abidə qədimliyini hələ də qoruyub saxlayır. Sakinlər deyir ki, Kotam kəndinin yaxınlığında inşaat üçün əlverişli torpaq olub və burada tikintilərin çoxu onunla inşa edilib. Bunu məscidin möhrəli divarlarında da görmək mümkündür.

Hər zaman tarixi, dini etiqadlarına hörmətlə yanaşan, onu qoruyan kənd sakinləri məscidə də eyni tərzdə yanaşıblar. Bura gələn yerli sakinlər tikilini təmiz saxlamaqla yanaşı, həm də içərisinə bəzi əşyalar da yerləşdiriblər. Nazim kişi onu da diqqətimizə çatdırır ki, sakinlər çox vaxt yaxınlarının qəbirlərini ziyarət etməyə gələrkən burada ehsan da verirlər.

Kəndin salındığı tarix hələ tam dəqiq deyil. Buradakı qəbiristanlığa, daha doğrusu, qəbir daşlarına baxıb belə qənaətə gəlinib ki, bu kənddə XII əsrdə belə insanlar yaşayıblar. Eyni zamanda evlərin yerləşmə və tikilmə mövqeyi də bunu sübut edir. 150-yə yaxın evin olduğu bu yaşayış məntəqəsindəki evlər dağın döşündə – bir-birinə yaxın inşa edilib. Səbəbi isə düşmənlərdən qorunmaq üçün insanların daha sıx məskunlaşması göstərilir.

Dağılan, sökülən, lakin divarları, daşları əsrlərlə çarpışan, tarixi unudulmayan kəndi tərk edərkən bizi səmada məğrur, qürub çağında üfüqlərin qızılı şəfəqlərində kölgə kimi süzən qartallar yola salır. Necə deyərlər, qartallar obaları, dağları, elləri uca göstərər. Elə tarixi kəndimiz Kotam kimi...



**Ceyhun MƏMMƏDOV**

# Elm səmasını aydınladan təbəssümlər







**Elm üfüqündə yeni şəfəqlər — dağ kəndlərinin gənc müəllimləri və müəllimlərini sevən şagirdlər. Onlar bu dəfə “Şərq qapısı” qəzetinin fotoobyektivinə təbəssüm etdilər. Müasir təhsil infrastrukturu, əlverişli tədris mühiti, innovativ təlim metodu, pedaqoq əməyinə verilən qiymət... Həm şəhər mərkəzinin, həm də ən ucqar dağ kəndinin məktəbi üçün xarakterikdir bu amillər. Pedaqoji fəaliyyətdə kövrək addımlarını sevə-sevə ucqar yaşayış məntəqələrində atan gənc müəllimlərin, gələcəyin mütəxəssisləri olacaq intellektual təfəkkürə malik şagirdlərin üzlərindəki təbəssüm də bunun müjdəçisidir.**

**Foto: Əli XUDİYEV**










## Tükiyəli alpinistlər Xocalı faciəsi qurbanlarının və şəhidlərimizin xatirəsini Haçadağın zirvəsində andı



Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar olaraq təşkil olunan yürüş səhər saatlarında Culfa rayonunun Gal kəndindən start götürüb və iştirakçılar zirvəyə qədər olan 9 kilometr məsafəni qət ediblər. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Turizm Departamenti və Naxçıvan Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən təşkil olunan yürüşə qardaş ölkənin İstanbul, Antalya, Qars, Ağrı, Elazığ və İğdır bölgələrindən gələn, aralarında peşəkar və həvəskar alpinistlər olmaqla, 40 nəfər, eləcə də 10 nəfər yerli ekstrimsevər qatılıb. Çətin relyefdə iştirakçıların təhlükəsizliyinin təmin edilməsi və mövcud risklərin idarə olunması məqsədilə aidiyyəti dövlət qurumlarının əməkdaşları da aksiyaya cəlb ediliblər.

İştirakçılar tərəfindən 2415 metr yüksəklikdə – Haçadağın zirvəsində Xocalı faciəsi qurbanları və 44 günlük Vətən müharibəsi şəhidləri yad edilib, hər iki ölkənin Dövlət Himni ifa olunaraq Azərbaycan-Türkiyə qardaşlığı və Xocalı soyqırımına aid şüarlar səsləndirilib.

Yürüş başa çatdıqdan sonra alpinistlərə təşəkkürnamə təqdim olunub.

Qeyd edək ki, alpinist qrupu üçgünlük səfər proqramı çərçivəsində Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin, eləcə də Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün abidələrini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar. Bundan əlavə, qonaqlar muxtar respublikanın turizm əhəmiyyətli məkanlarına baş çəkiblər.

### İtmişdir

Məmmədov Əmir Əli oğlunun adına olan “CAT 432F” markalı traktorun AZ-185FX284 nömrəli qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Material Texniki Təchizat və Nəqliyyat İdarəsinin balansında olan “Caterpıllar-428E” markalı AZ-185 FX 464 dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Səfərov Nurəddin Qulam oğlunun adına olan JN-209$^{A}$ nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Anaqut kənd sakini Bağırov Natiq Mustafa oğlunun adına olan JN-367$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

İbrahimov Araz Vasif oğlunun adına olan kapitan Seyidov küçəsində yerləşən mənzilin 102011000037-05101-093012 reyestr nömrəli texniki pasport və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Mirzəliyeva Fatimə Sahib qızının adına “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Məhərrəmov Asim Allahverdi oğlunun adına olan gizirin SQ-0026144 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Hümbətov Mahir Zahid oğlunun adına 1999-cu ildə Naxçıvan Özəl Universiteti (indiki “Naxçıvan” Universiteti) tərəfindən verilmiş A-042718 nömrəli diplom itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yeniyol kənd sakini Məmmədov Şirəli Əsgər oğlunun adına olan JN-121, kod-10302028 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Siyaqut kənd sakini Bayramova Bəyaz Məhəmməd qızının adına olan JN-117$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin balansında olan 1988-ci il buraxılışlı T-330 markalı 185 FX028 və 1968-ci il buraxılışlı S-108 markalı 185 FX029 qeydiyyat nömrəli traktorların texniki pasportları itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Şəhriyar küçəsi 52 ünvanda yaşamış Əliyev Qurban Abbasqulu oğlunun adına olan 3643 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Püsyan kənd sakini Bəbirova Surayyə Məhərrəm qızının adına olan JN-456 nömrəli dövlət aktı və JN-851$^{A}$ nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Quliyev Həsən Məmməd oğlunun adına olan Şahtaxtinski küçəsi, döngə 3, ev 21-in 3254 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

### Bildiriş

“Şərur” Karate-do İdman Klubu fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 53